# YENİ AZƏRBAYCAN

30 oktyabr 2025-ci il, cümə axşamı
№ 197 (7024)
Qiyməti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.




Milli azadlıqdan şirin nemət yoxdur!





İlham Əliyev
@azpresident

Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvəladli, Xubyarlı, Zəngilan rayonunun Aladin, Vecnəli, Qubadlı rayonunun Kavdadıq, Məmər, Mollalı kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

Translate Tweet

3:00 PM · Oct 30, 2020 · Twitter for iPhone




# Zəngilandan başlayan "Böyük Qayıdış"

Bax səh. 2

## Azərbaycan sülhpərvər siyasət yürüdür - "Dəmir yumruq" isə yerindədir!



Bax səh. 2

## "Konstitusiya müasir dünyada dövlətlərin müstəqilliyinin və suverenliyinin təməli kimi"

### Milli Məclisdə beynəlxalq parlament konfransı keçirilib

Bax səh. 4

## AvroNest iclasında iştirakdan imtina - səbəb ədalətsiz mövqelərdir




Bax səh. 5

## Azərbaycan regionun yeni enerji xəritəsini formalaşdırır

Bax səh. 3

## Təqaüdlər nə qədər artacaq?

Bax səh. 5



## PKK Türkiyəni tərk edir - bəs sonra?

Bax səh. 6




## Rekord qeydə alına bilər - şatdaunun 30-cu günündə...

Bax səh. 7

# Ölkəmiz regionda davamlı sülhün təmin olunması istiqamətində səylərini davam etdirəcək

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) Federal Milli Şurasının sədri Saqr Qobaşın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, qonaq, ilk növbədə, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın salamlarını dövlətimizin başçısına və Azərbaycan xalqına çatdırdı. Saqr Qobaş bildirdi ki, Şeyx Məhəmməd bin Zayed Al Nəhyan bu ilin sentyabrında Azərbaycana, Şuşa şəhərinə səfərini və dövlətimizin başçısı ilə görüşünü məmnunluqla xatırlayır.

Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30 illiyinə həsr olunmuş beynəlxalq parlament konfransının yüksək səviyyədə təşkil edildiyini deyən Birləşmiş Ərəb Əmirlikləri Federal Milli Şurasının sədri vurğuladı ki, bu tədbir ölkəmizin konstitusional dəyərlərə və suverenliyə nə qədər sadiq olduğunun və əhəmiyyət verdiyinin bariz nümunəsidir.

Qonaq Azərbaycanın inkişafına toxunaraq, bunun Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində mümkün olduğunu vurğuladı. Saqr Qobaş paytaxt Bakının gözəlliyinin və memarlığının onda dərin təəssürat hissi yaratdığını dedi.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə və xalqına çatdırmağı xahiş etdi.

Prezident İlham Əliyev Şeyx Məhəmməd bin Zayed Al Nəhyanla həm Əbu-Dabidə, həm də Azərbaycanda Bakı və Şuşa şəhərlərində görüşlərini və aparılmış müzakirələri məmnunluqla xatırladı.

Dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin sabiq prezidenti Şeyx Zayed bin Sultan Al Nəhyanın uzaqgörən siyasəti və ölkə rəhbərliyinin ardıcıl səyləri nəticəsində Birləşmiş Ərəb Əmirliklərinin uğurlu nümunəvi inkişafını qeyd etdi.

Ulu Öndər Heydər Əliyevin BƏƏ-nin sabiq Prezidenti Şeyx Zayed bin Sultan Al Nəhyan ilə 1994-cü ildə İslam Əməkdaşlıq Təşkilatının Kasablanka Sammitində görüşü xatırlanaraq, məhz həmin görüşdə ölkələrimiz arasında hazırkı münasibətlərin təməlinin qoyulduğu vurğulandı.

Qonaq regionda sülhün təmin olunması, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması münasibətilə Prezident İlham Əliyevi təbrik etdi.



Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirərək, Ermənistanın Azərbaycana qarşı 30 il davam edən işğalından sonra hər iki tərəfin hazırda sülh şəraitində yaşamağa uyğunlaşdığını bildirdi.

Prezident İlham Əliyev bundan sonra da ölkəmizin regionda davamlı sülhün təmin olunması, nəqliyyat layihəsinin, xüsusilə TRIPP xətti üzrə nəqliyyat bağlantılarının yaradılması istiqamətində səylərini davam etdirəcəyini dedi.

Söhbət zamanı Azərbaycanla BƏƏ arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsində bütün istiqamətlər üzrə uğurla inkişaf etdiyi qeyd olundu. Bu xüsusda "Masdar" şirkətinin Azərbaycana bərpaolunan enerji sektoruna sərmayələrinə, SOCAR-ADNOC əməkdaşlığına, qarşılıqlı investisiyalara toxunuldu.








# Azərbaycan sülhpərvər siyasət yürüdür - "Dəmir yumruq" isə yerindədir!

Vətən müharibəsində qazanılan qalibiyyət 30 ilə yaxın davam edən erməni işğalına son qoydu. Düşmən tapdağında olan torpaqlarımız, Azərbaycanın dünənini özündə əks etdirən tarixi məbədlərimiz öz azadlığına qovuşdu. Regionda yeni siyasi reallıqlar formalaşdıran Azərbaycan Ermənistanı kapitulyasiyaya məcbur etdi. Bu gün qalib ölkə olaraq bölgədəki siyasi proseslər məhz Azərbaycanın iradəsi əsasında inkişaf edir. Hər zaman dayanıqlı sülhün tərəfdarı kimi çıxış edən ölkəmiz bu gün qalib ölkə olmasına baxmayaraq, bölgədə əməkdaşlığın, normal münasibətlərin formalaşdırılmasını istəyir. Avqust ayında imzalanan müvafiq sənəd və razılaşmalar, sülh istiqamətində pozitiv davranışlar gələcək üçün mühüm ümidlər formalaşdırır.

Bununla belə, Azərbaycan xalqı özünün dünənini unutmur, keçmişini yaddan çıxarmır. Çünki torpaqlarımızın azadlığı olduqca gərgin, keşməkeşli bir prosesin nəticəsi oldu - bu yolda canından keçən minlərlə igid Azərbaycanın ədaləti mövqeyinin bərqərar olunmasına töhfə verdi. Bu səbəbdən də tariximizi unutmamalıyıq - əksinə, ondan dərs çıxarmalı, gələcək üçün nümunə yaratmalıyıq.

**Tariximizin ən parlaq səhifəsi...**

Qarabağ müharibəsi də analoji bir prosesinin nəticəsi idi - zəfər yürüşü, qalibiyyət məhz Vətən sevgisinin, Vətənə bağlılığın simvolu kimi yadda qaldı. Cəmisi 44 gün ərzində yüzlərlə kənd, qəsəbə, şəhər, rayon öz azadlığına qovuşdu. Bu, Azərbaycanın qələbə təntənəsinin müjdəsi idi. Artıq o günlərdən 5 il ötür. Bu illər ərzində həmin torpaqlarımızda yenidən həyat canlanır - kəndlər salınır, şəhərlər abadlaşdırılır, həmin ərazilərin əsl sahibləri evlərinə dönürlər. Bu qayıdış isə Qələbənin ən əsas təminatçısı, təsdiqidir. Bir neçə gün öncə Cəbrayıl rayonunun Horovlu kəndinin sakinlərinə də öz evlərinin açarları təqdim edildi. Mərasimdə iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, Horovlu kəndi Vətən müharibəsinin ilk həftəsində erməni işğalından azad edilmişdir və əslində, bizim Zəfər yürüşümüz bu bölgələrdən başlamışdır. Cəbrayıl, Füzuli istiqamətində irəli gedən bizim əsgər və zabitlərimiz düşmənin bir neçə müdafiə xəttini yara bilmiş, beləliklə, gələcək Zəfər yürüşümüzü şərtləndirmişlər: "Allah şəhidlərimizə rəhmət eləsin. Onların əziz xatirəsi daim bizim qəlbimizdə yaşayır, yaşayacaq. Düz beş il bundan əvvəl bu ərazi işğaldan azad edildi və bu şanlı tarix hər zaman bizim qəlbimizdə yaşayacaq. Bir neçə gündən sonra biz tarixi Zəfərimizin beşinci ildönümünü qeyd edəcəyik. 8 Noyabr - Zəfər Günü bizim tariximizdə olan ən parlaq səhifədir. Beş il bundan əvvəl tarixi Zəfərimiz bütün dünyaya səs salıb".

**Biz sübut etdik ki...**

Azərbaycan xalqı 30 illik işğalla barışmadı - hətta ən kritik məqamlarda belə içimizdəki inam ölmədi - biz o torpaqlara qayıdacağıq şüarı bir an fikrimizdən yayınmadı. Dövlət siyasətimizin özəyində, prioritetlərimizin əsasında, inkişafımızın təməlində, ordu quruculuğumuzun kökündə məhz Qarabağın azadlığı tezisi, şüarı dayanırdı. Ulu Öndərimizin "biz o torpaqlara qayıdacağıq" inamı ilə Prezidentimizin "Qarabağ Azərbaycandır!" bəyanatı doğma Vətənin bütövlüyü və birliyi üçün konsepsiyaya çevrildi. Xalqımız bir nəfər kimi Vətənin azadlığı üçün səslənən çağırışa cavab verdi - vahid amal uğrunda birləşməmiz bir daha göstərdi ki, Qarabağ bizim tariximizin, dünənimizin, bu günümüzün və sabahımızın ayrılmaz hissəsidir. Prezident İlham Əliyev çıxışında bildirib ki, Azərbaycan xalqı mərd xalqdır, qəhrəman xalqdır, iradəli xalqdır, öz torpağına bağlı olan xalqdır: "Biz sübut etdik ki, işğalla barışmaq fikrində deyildik, halbuki bunu dəfələrlə bəyan etmişdik. Döyüş meydanında 300-dən çox şəhər, qəsəbə, kənd azad edildi və Ermənistan kapitulyasiya aktına imza ataraq təslim olmağa məcbur oldu".

**Xalqımız həm ədalətə inanıb, həm də onu təmin edib**

Azərbaycan bu gün qlobal münasibətlər sistemində Cənubi Qafqazın lideri kimi qəbul edilir. Bizim yalnız bir hədəfimiz var - əməkdaşlıq, sülh və sabitlik. İstər qonşu dövlətlərlə, istər qeyri-region ölkələri ilə, istər beynəlxalq təşkilatlarla əlaqələrimiz bərabərhüquqlu, beynəlxalq hüquq çərçivəsində, ədalət müstəvisində qurulur. Azərbaycan bütün davranışlarında ədalətə və beynəlxalq hüquqa əsaslanır - biz bu həqiqəti hər zaman sübut etmişik. Hələ 14 il öncə BMT TŞ-nın qeyri-daimi üzvü seçildiyimiz zaman, yaxın keçmişdə ard-arda Qoşulmama Hərəkatına sədrlik etdiyimiz dövrdə, kolonializmə qarşı mübarizədə ön sıralararda təmsilçiliyimizdə, qlobal pandemiyanın fəsadlarının aradan qaldırılması işində, bir sözlə, hər zaman öz nüfuzumuzu, ədalətimizi nümayiş etdirmişik. Biz həm döyüş meydanında qalib olmuşuq, həm də hüquq müstəvisində hər zaman haqlı olmuşuq. Diqqət yetirsək, dünyada baş alıb gedən kataklizmlərin fonunda Azərbaycanın son 5 ildə qazandığı uğurlar ölçüyəgəlməzdir - biz, ədalətin qələbəsi kimi bir presedent formalaşdırmışıq. Dövlət başçısı bildirib ki, bugünkü reallıq, bugünkü gün, o cümlədən ədalətin təntənəsidir: "Ədalətə inanmaq və onu təmin etmək lazımdır. Bax, bizim xalqımız həm ədalətə inanıb, həm də onu təmin edib. Bu torpaqların sahibləri bizik. Düşməni öz torpaqlarımızdan qovmuşuq və bu gün gözəl həyat qururuq".

**Güllə qabağına getmək çox böyük cəsarət tələb edir**

İllərlə Azərbaycanın sülh çağırışına adekvat cavab verməyən Ermənistan ötən dövr ərzində müəyyən "qaranlıq məsələlərə" ümid edib - Ermənistan istər ötən 30 ildə, istərsə də postmüharibə dövründə bəzi "dəstəyə" güvənərək sülh gündəliyini uzatmaq, proseslərin sürətini azaltmaq üçün cəhdlər göstərirdi. Təbii ki, bəzi regionda marağı olan ölkələr, təşkilatlar bu münaqişəyə ədalət prizmasından yanaşmırdılar - həmin subyektlər Ermənistanın bu destruktiv mövqeyini dəstəkləməklə ona "dayaq" olduğunu göstərməyə çalışırdı. Amma bu "dəstəyin" altında bölgədə qeyri-adekvat müşitin formalaşması, Ermənistanın regional inkişaf tempindən aralıda saxlanılması kimi amillər dayanırdı. Ermənistanın siyasi rəhbərliyi düşünürdü ki, işğal əbədi olacaq - amma düşünməli idilər ki. Azərbaycan xalqı heç bir zaman bu ədalətsizliklə barışmayacaq. Zaman göstərdi ki, Azərbaycan xalqı işğalla barışmadı - Vətən həsrəti, ruh yüksəkliyi və torpağa bağlılıq işğal faktının aradan qalxmasında mühüm rol oynadı. Dövlət başçısı sakinlərlə söhbətində bildirib ki, biz qisasımızı döyüş meydanında aldıq. Şəhidlərimizin qanını da aldıq, ədaləti də bərpa etdik. Bütün düşmənləri də qovduq torpağımızdan: "Bunu deyirdik beynəlxalq təşkilatlara. Bir dənə beynəlxalq təşkilat bir şey elədi? Heç nə! Bir nəfər gəlib erməniyə dedi ki, sən buradan çıx, bura sənin deyil? Hələ istəyirdilər ki, biz də barışaq bu vəziyyətlə. Hələ deyirdilər ki, sülh yolu ilə həll edin. Deyirdim, yaxşı, sülh yolu ilə edək, amma həll edək də. Yox, müharibə olmamalıdır. Sonra deyirdilər ki, müharibə heç bir nəticə verməz. Yəni, bu məsələ ilə məşğul olanların hamısı bizə qarşı birləşmişdi, hamısı Ermənistanın tərəfində idi. Bizim xalqımız da iradə göstərmişdir, barışmadıq, uşaqlar vətənpərvərlik ruhunda böyüdü. Ailələrdə, məktəblərdə uşaqlara verilən tərbiyə böyük rol oynamışdır. Yəni, bu torpaqları bizim gənclərimiz sinələrini qabağa verərək azad etmişdir. Özü də ən çox elə birinci mərhələdə bizim şəhidlərimiz olub. O müdafiə xətlərini keçəndə - həm buradan, həm Füzulidən. Onlar bu torpaq həsrəti ilə yaşayırdılar, güllə qabağına getmək çox böyük cəsarət tələb edir".

Zaman göstərdi ki, Ermənistanın və onun havadarlarının bütün cəhdləri boşa çıxdı - artıq Ermənistan da anlayır ki, başqa çıxış yolu yoxdur və Azərbaycanla sülh müqaviləsi imzalanmalıdır. Çünki Ermənistanın qeyri-konstruktiv mövqeyi regionda təhlükəsizliyin təmini ilə yanaşı, bu dövlətin gələcək inkişafını da yubadır. İrəvan onsuz da ötən 30 illik işğal dövründə bu kimi təhrik və "dəstək" nəticəsində iqtisadi - siyasi müstəvidə çox şey itirib - ən əsası bu dövlət müstəqil olmaq şansını itirib. Həm də bu mənada, İrəvan Azərbaycanın irəli sürdüyü şərtlər əsasında sülhə razılaşmalıdır.

**Heç kim bizə qarşı baş qaldıra bilməz...**

Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın artan iqtisadi imkanları ölkəmizdə ordu quruculuğu istiqamətində və müdafiə sənayesi sektorunda davamlı layihələrin həyata keçirilməsinə, yüksək inkişaf əldə olunmasına əhəmiyyətli baza yaradıb. Bu isə son illərdə hərbi və müdafiə sənayesi sektorunda genişmiqyaslı kompleks islahatların daha da təkmilləşdirilməsi, bu sahələrin daha dinamik inkişafı üçün əlverişli imkanlar açır. Bu gün dünyada artan təhdidlər, qlobal təhlükəsizlik arxitekturasının zərər görəcəyi ilə bağlı proqnozlar dünyanı bu hədəfə fokuslayıb. Azərbaycan isə artıq bir neçə ildir ki, hərbi sənayesinin gücləndirilməsi yönündə fəal iş aparır. Təbii ki, artıq Ermənistan təhlükəsi bitib - bununla belə, ölkəmiz özünün təhlükəsizliyini təmin etmək üçün hər an hazır olmalıdır. Düzdür, Vaşinqton sammiti sülhün reallaşmasını artıq dəqiqləşdirib - amma erməni xislətinə bələd olan cəmiyyət kim, biz hər zaman ayıq-sayıq olmalıyıq. Hətta müharibədən sonra Ermənistanın özünəməxsus şəkildə "silahlandırılması" deyilənləri təsdiqləyir. Bu dövrdə bəzi dövlətlər tapıldı ki, Ermənistana ucuz qiymətə köhnə silahlar "təklif etdi". Bu kimi faktları özü üçün "ordu quruculuğu" təbliğatına çevirmək istəyən Ermənistanın siyasi-hərbi rəhbərliyinin cəhdləri isə fiaskoya uğradı. Nəticə etibarı ilə Ermənistan bir daha yanlışlığa yol verməməlidir. "Dəmir yumruq" hər zaman öz yerindədir. Ermənilərin yanlışlıqla "revanşizm" arzusuna düşməsi onların sonunu gətirə bilər.

Prezident İlham Əliyev də bildirib ki, bundan sonra heç kim bizə qarşı baş qaldıra bilməz: "Heç kim, heç kim! Əgər kimsə baş qaldırsa, yenə də "Dəmir yumruğu" görəcək".

*Pərviz SADAYOĞLU*







# Zəngilandan başlayan "Böyük Qayıdış"

Son otuz il ərzində baş verən hadisələr fonunda oktyabr ayı zəngilanlılar üçün xüsusi məna kəsb edir. Tale elə gətirib ki, respublikamızın dilbər guşələrindən olan Zəngilan rayonunun işğal altına düşməsi və işğaldan azad edilməsi oktyabr ayına təsadüf edib. Rayonun mənfur düşmən tərəfindən işğal altına düşməsi 1993-cü il 29 oktyabr tarixində baş vermişdi. Beş il bundan əvvəl - 2020-ci il oktyabrın 20-də isə rayon işğaldan azad edilib.

Diqqətçəkən mühüm məqamlardan biri də ondan ibarətdir ki, tarixi qələbələrimizin əsas memarı olan Prezident İlham Əliyev cari il oktyabrın 28-də növbəti dəfə işğaldan azad olunmuş ərazilərdə, o cümlədən də Zəngilanda səfərdə olub. Dövlətimizin başçısı səfər çərçivəsində Zəngilanda və Cəbrayılda bir sıra təməlqoyma və açılış tədbirlərinə qatılıb, eyni zamanda Zəngilan rayonunun Məmmədbəyli və Ağalı kəndlərinin sakinləri ilə görüşündə "Böyük Qayıdış" proqramının uğurla həyata keçirilməsindən böyük məmnunluğunu ifadə edib.

**İşğala məruz qalmış sonuncu rayon**

1988-ci ildən 1993-cü ilin oktyabrınadək düşmənin aramsız hücumlarına sinə gərən Zəngilan işğala məruz qalan sonuncu rayonumuzdur. Rayonun sakinləri bir neçə il ərzində doğma yurd yerlərini bir növ əliyalın qorudular. Respublikanın o vaxtkı rəhbərliyi rayonun müdafiəsini lazımi səviyyədə təşkil etmək qayğısına qalmırdı. İnsanların əlində yalnız gizlətdikləri kiçik silahlar, ov tüfəngləri var idi. Buna görə də qeyri-bərabər döyüşlərdə rayonun kəndləri bir-birinin ardınca işğal altına düşürdü. 1993-cü il oktyabrın 25-26-da Sığırt və Bartaz yüksəklikləri işğal olundu, bununla da Zəngilan tam mühasirə vəziyyətində qaldı.

Təxminən 34 min əhali İran sərhədinə - Araz çayının kənarına toplaşmışdı. Həmin dövrdə Heydər Əliyev İran hökuməti ilə danışıqlar apardıqdan sonra Araz çayı üzərindəki bənddə su bağlandı və əhali çayı keçib xilas oldu. Heydər Əliyev öz nüfuzundan istifadə edərək İran hökumətinin razılığını almasaydı, Zəngilan əhalisi ya düşmənə əsir düşməli, ya da Arazın sularına qərq olmalıydı. Döyüşlərdə 200-dək şəhid verən Zəngilan rayonunun 44 sakini itkin düşmüş sayılır. Zəngilanın məcburi köçkün vəziyyətinə düşən sakinləri respublikanın 43 rayonunda müvəqqəti məskunlaşıblar.

**Qalib Azərbaycanın "Böyük Qayıdış" hədəfi**

Yeni strateji mərhələdə "Böyük Qayıdış" ökəmizin beş mühüm prioritetindən biri kimi müəyyənləşdirilib. Azərbaycan dövləti Qarabağı cənnətə çevirmək və otuz il ərzində ağır qaçqınlıq və məcburi köçkünlük taleyi yaşamış soydaşlarımızın yurd yerlərinə qayıdışını layiqli şəkildə təmin etmək əzmindədir. "Ermənilər viran qoyub bizim dədə-baba torpaqlarımızı, biz isə qurub-yaradan xalqıq. Biz düşməni torpaqlarımızdan qovmuşuq. İndi də doğma torpağımızda qurub-yaradırıq, şərait yaradırıq, binalar, məscidlər tikirik, tarixi abidələri bərpa edirik. Yəni, biz - bu torpaqların sahibləri qayıtmışıq və burada əbədi yaşayacağıq", - deyə Prezident İlham Əliyev bəhs olunan görüşdə bildirib.

Qeyd edək ki, azad ərazilərin quruculuq salnaməsinin ilk konsepsiyası olan "İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası ilə bağlı nəzərdə tutulan tədbirlər plan üzrə tam şəkildə icra olunmaqdadır. Postmüharibə dövründə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına sərmayə qoyuluşları ölkə üzrə investisiya portfelində xüsusi üstün yer tutub. Ən böyük yatırımlarda paytaxt Bakı şəhəri ilk yerdə dayansa da, azad edilmiş ərazilərdəki rayonlar sonrakı yerləri tutub. Bu rayonlarda 2021-2024-cü illərdə kapital qoyuluşlarının həcmi təxminən 20 milyard manata yaxın olub.

İşğaldan azad olunmuş ərazilərin bərpası cari ildə də yüksək templə davam etdirilib. Bu ilin yanvar-sentyabr aylarında Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin yenidən qurulması və bərpasına dövlət büdcəsindən 2 milyard 900,9 milyon manat xərclənib. Bunun 2 milyard 234,8 milyon manatı infrastruktur layihələrinə, 291,7 milyon manatı təhsil, səhiyyə, mədəniyyət və idman yönümlü layihələrə, 41 milyon manatı isə ərazilərin minalardan təmizlənməsinə yönəldilib.

**Məskunlaşmanın ilk ünvanı - Ağalı kəndi**

44 günlük müharibə başa çatandan sonra isə işğaldan azad edilmiş digər ərazilərdə olduğu kimi, Zəngilan rayonunun da yeni növrağı başlayıb-bərpa və quruculuq dövrü. Zəngilan rayonunda da bərpa layihəri bir neçə istiqamətdə aparılır. Əsas iqtiqamətlərdən biri zəruri infrastruktur yaradılmasını əhatə edir. Postmüharibə dövründə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bir neçə dəfə Zəngilana səfərə gələrək burada ayrı-ayrı layihələrin icrasına başlanılması mərasimlərinə qatılıblar.

Əlamətdar haldır ki, işğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"a məhz Zəngilan rayonunda start verilib. Rayonun Ağalı kəndində müasir yanaşmalar əsasında inşa olunan ilk "ağıllı kənd"ə artıq bir neçə mərhələdə sakinlərin köçürülməsi təmin olunub. Burada 27 il ərzində ağır məcburi köçkünlük taleyi yaşayan sakinlər üçün hər cür rahatlıqlar təmin edilib. Qeyd edək ki, işğala qədər bu inzibati ərazi 3 kəndi birləşdirib. Həmin dövrdə Birinci Ağalıda 40 ailə (154 nəfər), İkinci Ağalıda 60 ailə (245 nəfər), Üçüncü Ağalıda 161 ailə (675 nəfər) yaşayıb. Ağalıya ilk köç 2022-ci ilin iyul ayında baş tutub və 41 ailə doğma kəndə qayıdıb.

**"Böyük Qayıdış"ın yeni mərhələsi**

"Böyük Qayıdış"a dair I Dövlət Proqramı çərçivəsində Qarabağa və Şərqi Zəngəzura 140 min insanın köçürülməsi planlaşdırılır. "Böyük Qayıdış" strategiyası perspektivdə də eyni ardıcılıqla davam etdiriləcək. Xatırladaq ki, Azərbaycan Prezidentinin 2025-ci il 30 may tarixli 611 nömrəli sərəncamı ilə "2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın və "Böyük Qayıdışa dair II Dövlət Proqramı"nın 9 ay müddətində hazırlanması üçün Nazirlər Kabinetinə tapşırıq verilib. Prezident İlham Əliyev bəhs olunan görüşdə "Böyük Qayıdış"ın yeni mərhələsinin başladığını bəyan edib.

Səfər çərçivəsində həmçinin Prezident İlham Əliyevin iştirakı ilə Zəngilan rayonunun Ağalı kəndinin 2-ci mərhələsi istifadəyə verilib. Ağalı kəndinin ikinci mərhələsində sakinləri qarşılayacaq evlərin sayı 103 ədəddir.

*Mübariz ABDULLAYEV*

# Azərbaycan ilə Rumıniya dost və tərəfdaş ölkələrdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da Rumıniya Parlamenti Senatının sədri Mirça Abrudeanı qəbul edib.

AZƏRTAC xəbər verir ki, qonaq Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması, bu xüsusda Vaşinqtonda ABŞ Prezidentinin şahidliyi ilə bəyannamənin imzalanması, Azərbaycan ilə Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Sazişin paraflanması münasibətilə dövlətimizin başçısını təbrik etdi, bunun bütün regionda sülhün təmin olunmasına və inkişafa xidmət edəcəyinə ümidvarlığını bildirdi.



Mirça Abrudean bu gün Bakıda Milli Məclisin xətti ilə keçirilən Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30 illiyinə həsr olunmuş beynəlxalq parlament konfransında iştirakdan məmnunluğunu ifadə etdi, bu tədbirin yüksək səviyyədə təşkil olunduğunu dedi.

Azərbaycan ilə Rumıniyanın dost və tərəfdaş ölkələr olduğunu vurğulayan qonaq əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün geniş imkanların mövcudluğunu vurğuladı. Senatın sədri ikitərəfli münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin, həmçinin beynəlxalq parlament təsisatlarında əməkdaşlığın önəmini qeyd etdi.

Təbriklərə görə təşəkkürünü bildirən dövlətimizin başçısı Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı məsələdə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın xüsusi roluna toxundu, bu istiqamətdə əldə olunmuş nailiyyətlərin bütün region üçün tarixi əhəmiyyət kəsb etdiyini dedi.

Söhbət zamanı Azərbaycan, Rumıniya, Gürcüstan və Macarıstanın iştirakı ilə Buxarestdə Xəzər dənizinin dibi ilə elektrik kabel xəttinin tikilməsi layihəsinin önəmi vurğulandı, bunun ölkəmizin və Mərkəzi Asiya regionu dövlətlərinin bərpaolunan enerji resurslarının Avropa bazarlarına çıxarılması baxımından əhəmiyyətinə toxunuldu.

Görüşdə Azərbaycanla Rumıniya arasında müxtəlif sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

# Regional sənaye quruculuğunda yaxşı nəticələr

## Həm daxili tələbat ödənilir, həm də xaricə mal ixrac olunur

Azərbaycan nümunəvi inkişaf modelinə malik olan ölkədir. Davamlı inkişafın bütün ölkə boyunca təmin edilməsi isə dünyada böyük maraqla qarşılanan bu modelin ən səciyyəvi cəhətlərindən birini təşkil edir. Respublikamızda 2004-cü ildən etibarən Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncamlara uyğun olaraq regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları reallaşdırılır. Ötən dövrdə yerli iqtisadi potensial və tarixi əmək ənənələri nəzərə alınmaqla hazırlanan bu proqramlar çərçivəsində böyük həcmlərdə investisiya qoyuluşu hesabına ölkənin bütün bölgələrində yüksəksəviyyəli infrastruktur qurulub, yeni istehsal müəssisələri yaradılıb, quruculuq-abadlıq işləri görülüb.

Əlamətdar haldır ki, Prezident İlham Əliyev regionlarda müxtəlif layihələrin yüksək səviyyədə həyata keçirilməsinə xüsusi diqqət yetirir. Dövlətimizin başçısı mütəmadi qaydada regionlara səfərlərə gedir, ictimaiyyətin nümayəndələri ilə görüşür, onların arzu və istəkləri ilə maraqlanır. Bu səfərlər həmçinin yeni-yeni təməlqoyma və açılış mərasimləri ilə də yadda qalır.

Elə bu günlərdə  Prezident İlham Əliyev Sabirabad və İmişli rayonlarında növbəti dəfə belə tədbirlərə qatılıb.

**Sabirabadda yeni istehsal müəssisələri ilə tanışlıq**

Prezident İlham Əliyev oktyabrın 28-də Sabirabad Sənaye Məhəlləsində “Humix” Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) aqrokimyəvi vasitələrin istehsalı müəssisəsinin fəaliyyəti ilə tanış olub. Sabirabad Sənaye Məhəlləsi dövlətimizin başçısının 2017-ci ildə imzaladığı Sərəncamla yaradılıb. İndiyədək burada 8 rezident qeydiyyatdan keçib və fəaliyyətə başlayıb.

“Humix” MMC ilə tanışlıq zamanı bildirilib ki, müəssisəyə 2021-ci ildə Sabirabad Sənaye Məhəlləsinin rezidenti statusu verilib. Müəssisədə orqanik mineral (toz), kimyəvi (maye və toz) və qranul gübrələr istehsal olunur. Türkiyə, Çin və yerli texnologiya əsasında fəaliyyət göstərən müəssisənin illik istehsal gücü 18 min ton gübrə təşkil edir.












Dövlətimizin başçısı Sabirabad Sənaye Məhəlləsində “Azera Toxumçuluq” Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) toxum istehsalı müəssisəsinin fəaliyyəti ilə də tanış olub.”Azera Toxumçuluq” MMC 2021-ci ildə Sabirabad Sənaye Məhəlləsinin rezidenti kimi qeydiyyata alınıb.

Burada Türkiyənin qabaqcıl texnologiyalarının tətbiqi ilə standart və hibrid toxum istehsalı müəssisəsi qurulub. Hazırda burada bir sıra toxumluq kənd təsərrüfatı məhsulları istehsal olunur. Müəssisə ildə 500 ton yonca, 800 ton hibrid qarğıdalı, 350 ton hibrid günəbaxan, 2 min ton arpa, 2 min ton buğda toxumu istehsalı gücünə malikdir.

Prezident İlham Əliyevin Sabirabad Sənaye Məhəlləsində fəaliyyəti ilə tanış olduğu istehsal müəssisələrindən biri də “Taşobası” Məhdud Məsuliyyətli Cəmiyyətinin pambıq emalı zavoduolub.2023-cü ildə Sabirabad Sənaye Məhəlləsinin rezidenti kimi qeydiyyata alınan “Taşobası” MMC-nin pambıq emalı zavodunda Türkiyə, Almaniya və İtaliya texnologiyalarının tətbiqi ilə mahlıc və texniki çiyid istehsal olunur.

Zavodun layihə dəyəri 3,3 milyon manatdır. Müəssisə ildə 8 min ton mahlıc, 10 min ton texniki çiyid istehsalı gücünə malikdir. İndiyədək istehsal edilən məhsulun dəyəri 2,6 milyon manat olan hissəsi satılıb ki, bunun da 2,2 milyon manatı ixracın payına düşür.

Sabirabad Sənaye Məhəlləsində fəaliyyət göstərən istehsal obyektlərindən biri də “Fırtına Su Sistemləri” Məhdud Məsuliyyətli Cəmiyyətinin su filtrlərinin istehsalı müəssisəsidir. Səfər çərçivəsində dövlətimizin başçısı bu müəssisənin də fəaliyyəti ilə tanış olub.

“Fırtına Su Sistemləri” MMC 2024-cü ildə Sabirabad Sənaye Məhəlləsinin rezidenti kimi qeydiyyata alınıb.Layihə dəyəri təxminən 1,2 milyon manat olan müəssisədə Çin texnologiyası əsasında mayenin süzülməsi və təmizlənməsi üçün avadanlıqlar istehsal edilir. Müəssisədə ildə 210 min ədəd filtr, 15 min ədəd su filtri cihazı istehsalı planlaşdırılır.



**İmişlidə arpa emalı müəssisəsi istifadəyə verilib**

Regionlara növbəti səfəri çərçivəsində Prezident İlham Əliyev “Promalt” Məhdud Məsuliyyətli Cəmiyyətinin arpa emalı müəssisəsinin açılışında iştirak edib.

Müəssisədə pivə istehsalında əsas xammal hesab olunan arpanın xüsusi proseslərdən keçərək mayalanma və fermentasiya üçün hazır vəziyyətə gətirilməsi ilə əldə edilən məhsul - malt istehsal olunacaq. İsveçrənin “Bühler GmbH” şirkətinin müasir texnologiyası əsasında hazırlanmış avadanlıqla təchiz olunan və emal prosesi tam avtomatlaşdırılan müəssisədə ildə 11 min ton arpa istehsal ediləcək.

Müəssisənin investisiya dəyəri 33,2 milyon manatdır. Qeyd edək ki, İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu, “Azərşəkər” MMC və “Azərsun Holdinq” MMC-nin tərəfdaşlığı əsasında həyata keçirilən layihəyə dövlətin investisiya təşviqi mexanizmi çərçivəsində vergi və gömrük güzəştləri ilə dəstək göstərilib. “Carlsberg Azerbaijan” pivə zavoduna da xammal satışı həyata keçirən müəssisə Cənubi Qafqazda pivəlik arpa səmənisinin emalı üzrə ixtisaslaşmış ilk müasir istehsal obyektidir. Layihə regionda aqrar-sənaye inteqrasiyasını gücləndirməklə yanaşı, texnoloji modernləşmə, daxili bazarın dayanıqlı xammal təminatı, istehsalın lokallaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır.

***Mübariz FEYİZLİ***

# Azərbaycan regionun yeni enerji xəritəsini formalaşdırır

## 13-cü Beynəlxalq “Caspian Energy Forum”unda ölkəmizin “yaşıl enerji” gücü yüksək dəyərləndirilib

Bakıda Xəzər, Qara dəniz və Baltik regionlarının enerji sektorunun əsas hadisələrindən olan 13-cü Beynəlxalq “Caspian Energy Forum” işə başlayıb. Biznes, hökumət və diplomatik missiya nümayəndələrini bir araya gətirən tədbirdə regionun qlobal enerji keçidindəki rolu, Azərbaycan, Qazaxıstan, Özbəkistan və Qara dəniz ölkələri arasında neft-qaz sektorundakı əməkdaşlıq və digər enerji təchizatı üzrə imkanların qiymətləndirilməsi, habelə “yaşıl enerji” dəhlizinin yaradılması istiqamətində aparılan işlər müzakirə edilib. Forumda, həmçinin, COP29 və COP30 kimi beynəlxalq tədbirlərin enerji gündəliyinin formalaşdırılmasında strateji əhəmiyyətli, bərpaolunan enerji və hidrogen layihələrinin tanıdılması, dövlət, biznes və beynəlxalq təşkilatlar arasında dialoqun dərinləşdirilməsi, habelə davamlı enerji sahəsinə investisiyaların təşviqi məsələləri diqqət mərkəzində dayanır.

### Qarabağ və Şərqi Zəngəzur “yaşıl enerji” mərkəzinə çevrilir

Forumda Azərbaycanın “yaşıl enerji” mənbəyi və tranzit ölkəsi kimi potensialına xüsusi diqqət çəkilib. Xarici işlər nazirinin müavini Yalçın Rəfiyev bildirib ki, Azərbaycan qlobal səviyyədə təmiz enerji strategiyasına töhfə verməkdədir. Ötən il COP29-u uğurlu toplantı kimi dünya enerji tarixinə yazan respublikamızın təşəbbüsü ilə bir sıra mühüm sənədlər imzalandı, strateji qərarlar qəbul olundu. 2030-cu ilədək qlobal bərpaolunan enerji gücünün ən azı 11 min giqavata qədər 3 qat artırılması və enerji səmərəliliyinin 2 faizdən 4 faizə ikiqat yüksədilməsi məqsədlərinə praktiki töhfə vermək üçün COP29 çərçivəsində enerji sahəsində üç istiqamətdə qlobal əhəmiyyətli təşəbbüs irəli sürüldü və hər biri qəbul edildi.

Y.Rəfiyev bildirib ki, Azərbaycan regionun yeni enerji xəritəsinin formalaşmasında həm istehsalçı, həm də tranzit ölkə kimi mühüm rol oynayır. Onun sözlərinə görə, Azərbaycan, Qazaxıstan, Özbəkistan və Qara dəniz hövzəsi ölkələri artıq yeni enerji xəritəsinin formalaşmasında mühüm oyunçulara çevrilirlər: “Azərbaycan bu prosesdə həm istehsalçı, həm də tranzit ölkə kimi önəmli rol oynayır. Xəzər dənizindəki külək potensialının reallaşdırılması ölkəmizi regionun “yaşıl enerji” mərkəzinə çevirir. Biz bərpaolunan enerji gücünə dair hədəflərimizə çatmaq üçün beynəlxalq tərəfdaşlarımızla sıx əməkdaşlıq aparırıq. İqlimə uyğunlaşma sahəsində su ehtiyatlarının idarə edilməsi, kənd təsərrüfatında iqlim dayanıqlığı və ekosistemlərin bərpası üzrə layihələr regionun iqlim risklərinə qarşı davamlılığını gücəndirir”.

Nazir müavini bildirib ki, bərpaolunan enerjinin əsas ünvanlarından biri kimi Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən layihələr ölkəmizin regionun “yaşıl enerji” mərkəzinə çevrilməsində mühüm rol oynayacaq. Cəmi bir neçə ildə bu bölgədə həyata keçirilən quruculuq işlərinin əhəmiyyətli bir hissəsi hidrogen və alternativ enerji infrastrukturlarının və güclərinin yaradılmasını əhatə etməklə, böyük potensial formalaşdırıb. İndiyə qədər bölgədə təkcə 40-a yaxın kiçik su elektrik stansiyası (KSEK) istifadəyə verilib ki, bu da bərpaolunan enerji gücünün artmasına öz müsbət təsirini göstərməkdədir.




### KOB sektoru “yaşıl dəyər zənciri”nin formalaşmasına töhfə verə bilər

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov dünya ölkələrində sürətlə bərpaolunan alternativ enerji mənbələrinə keçidin prioritet məsələyə çevrildiyinə diqqət çəkərək bu sahədə dövlətlə yanaşı, biznesin də üzərinə mühüm vəzifələr düşdüyünü bildirib. Qeyd edib ki, bu gün ölkəmizdə “yaşıl enerji” sektorunda yeni strategiya formalaşıb. Bu strategiya ilk növbədə ətraf mühitə tullantıların azaldılmasına, tükənməyən resurslarla davamlı enerji əldə edilməsinə və ənənəvi enerji mənbələrinə qənaət və ixrac imkanlarının artırılmasına hədəflənib. Bu hədəflərə xüsusi önəm verən KOB sektoru ölkənin “yaşıl enerji” strategiyasının həyata keçirilməsində rol oynamaq imkanlarına malikdir. Belə ki, “yaşıl enerji”nin istehsalı və logistika prosesindən yaşıl texnologiyaların istehsalına qədər dəyər zəncirinin müxtəlif həlqələrində KOB subyektləri iştirak edə bilər. Ölkəmizdə elektroenergetika sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi, aktiv istehlakçının dəstəklənməsi mexanizminin mövcudluğu və ölkəmizin “yaşıl enerji” ixracatçısı kimi hədəflərin olması kiçik güclü bərpaolunan enerji layihələrinin icrasında KOB subyektlərinin potensialından istifadə üçün geniş imkanlar yaradır.

Azərbaycanda fəaliyyət göstərən bizneslərin 99,7 faizini KOB subyektləri təşkil etdiyini və burada 400 min nəfərdən artıq işçi qüvvəsinin cəmləşdiyini qeyd edən Orxan Məmmədov bununla da KOB-ların həm özlərinin yaşıl və qənaətli enerji istehlakını artıra biləcəyini, həm də işçi heyəti arasında bu cür təcrübələrin tətbiqini genişləndirə biləcəyini vurğulayıb.

### “SOCAR Green” yeni iştirakçılar cəlb etməyə çalışır

“SOCAR Green” MMC-nin maliyyə departamentinin direktoru Rza Nağıyev isə bildirib ki, şirkət bərpaolunan enerji mənbələri ilə bağlı layihələrə yerli bazar iştirakçılarını cəlb etməyə çalışır. Bu prosesdə kapital qoyuluşları xüsusi əhəmiyyət daşıyır ki, “SOCAR” tərəfdaşlarla müasir maliyyələşmə sxemləri üzərində çalışır. “Yaşıl kapital”ın cəlb olunmasında ən əsas prinsiplərdən biri ICMA - “International Capital Market Association” prinsipləridir ki, bu alətin tətbiqində tələb olunan meyarlara müasir bazar tam imkan verə bilmir. Bunun səbəbi isə hazırda üçüncü tərəf kimi “yaşıl maliyyə” üzrə müstəqil qiymətləndiricilərin olmamasıdır

“SOCAR Green”i narahat edən digər məsələ bank icmasının tərəddüdləridir, belə ki, bərpaolunan enerji layihələrinin maliyyələşməsinə banklar tərəfindən həyata keçirilən əlverişsiz kredit siyasəti mane olur. Rza Nağıyevin fikrincə, yerli bankların böyük bir qisminin depozit portfeli daha çox qısamüddətli olması “yaşıl enerji” üzrə uzunmüddətli layihələri maliyyələşdirməsinə çətinliklər yaradır.

Yerli banklar “yaşıl enerji”yə kredit verməkdə xəsislik etsə də, xarici investorların, iri transmilli şirkətlərin səxavətliliyi daha çox nəzərə çarpır ki, bu da “yaşıl maliyyələşdirmə” üçün kanalları genişləndirir. Onlardan biri olan Birləşmiş Ərəb Əmirliklərinə məxsus “Masdar” şirkəti yeni alternativ enerji layihələri üzərində səylərini artırmaqdadır. “Masdar Azərbaycan” MMC-nin direktoru Murad Sadıqov bildirib ki, investor şirkət hazırda Azərbaycanda 3 yeni - 2 Günəş, 1 külək elektrik stansiyası inşa edir. Şirkət digər layihələr üzrə sərmayə planlarını nəzərdən keçirir və Azərbaycanı “yaşıl enerji” sahəsində regionun və MDB məkanının ən qabaqcıl ölkələri sırasında görərək davamlı investisiya cəlb edəcəyini bildirir.

***E.CƏFƏRLİ***

# “Konstitusiya müasir dünyada dövlətlərin müstəqilliyinin və suverenliyinin təməli kimi”

## Milli Məclisdə beynəlxalq parlament konfransı keçirilib



*Nardar BAYRAMLI*

Oktyabrın 29-da Milli Məclisdə Azərbaycan Konstitusiyasının qəbul edilməsinin 30 illiyinə həsr olunmuş “Konstitusiya müasir dünyada dövlətlərin müstəqilliyinin və suverenliyinin təməli kimi” mövzusunda beynəlxalq konfrans keçirilib.Konfrans çərçivəsində iştirakçılar müasir dövlətlərin hüquqi əsaslarının möhkəmləndirilməsində konstitusiyaların rolu, dövlətlərin suverenliyi və milli müstəqilliyinin qorunması istiqamətində fikir mübadiləsi aparıblar. Tədbirdə 20-dək ölkənin parlament nümayəndə heyətlərinin, eləcə də 5 beynəlxalq təşkilatın təmsilçiləri iştirak ediblər.

Tədbirdə çıxış edən spiker Sahibə Qafarova bildirib ki, “Konstitusiya müasir dünyada dövlətlərin müstəqilliyinin və suverenliyinin təməli kimi” mövzusuna həsr edilən beynəlxalq parlament konfransının Azərbaycanda keçirilməsinin rəmzi mənası var. Bu il biz müstəqil dövlətimizin ilk Konstitusiyasının qəbul olunmasının 30 illiyini qeyd edirik. Bununla əlaqədar 2025-ci il Azərbaycanda “Konstitusiya və Suverenlik İli” elan olunub. Onun sözlərinə görə, Azərbaycan dövlətçiliyinin tarixi ağır sınaqlar və parlaq qələbələr tarixidir: “1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan siyasi, iqtisadi, hərbi və digər sahələrdə mürəkkəb vəziyyətə düşmüşdü. Ölkəmizə qarşı silahlı təcavüz və daxili böhran dövlət müstəqilliyinin itirilməsi təhlükəsini törətmişdi.

Belə bir şəraitdə Ümummilli Lider Heydər Əliyevin əzmlə həyata keçirdiyi tarixi missiya ölkəmizin qarşısında dayanan problemləri aradan qaldırmağa, vəziyyəti sabitləşdirməyə, qanunçuluğu bərpa etməyə və müasir dövlətin əsaslarını yaratmağa imkan verdi. Onun rəhbərliyi ilə hazırlanmış və 1995-ci ildə qəbul edilmiş Konstitusiya ölkənin inkişaf strategiyasını irəli sürdü, xalqın suverenliyi, qanunun aliliyi, hakimiyyət bölgüsü prinsiplərini müəyyən etdi, insan hüquqlarının və azadlıqlarının müdafiəsi üçün təminatlar yaratdı. Bu mənada dövlətimizin əsas qanunu təkcə hüquqi sənəd deyil, həm də milli tariximizin yeni dövrünün, gələcəyə inam və quruculuq dövrünün simvoludur”.

Spiker qeyd edib ki, Heydər Əliyevin başladığı yol Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Son 22 il Azərbaycanın dövlətçilik tarixinə dinamik və hərtərəfli inkişaf dövrü kimi daxil olub. Bu dövrdə həm də Konstitusiyamızın real gücü praktikada sınaqdan keçib. “Ölkəmizin beynəlxalq miqyasda tanınan ərazisinin 20 faizi otuz ilə yaxın Ermənistanın işğalı altında olmuşdu. Bu dövrdə Konstitusiya dövlətimizin ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizənin hüquqi, mənəvi və fəlsəfi əsasını təşkil edirdi. Ölkəmizin əsas qanunu silahlı təcavüzə son qoymaq və sülh yaratmaq uğrunda diplomatik səylərimizin təməlində dayanmışdı. 2020-ci ilin Vətən müharibəsində və 2023-cü ilin antiterror əməliyyatında əldə edilən tarixi qələbələr nəticəsində Azərbaycan özü beynəlxalq hüququn qüvvəsini bərpa etdi. Dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin bərqərar edilməsi ilə Azərbaycan Konstitusiyasında müəyyənləşdirilmiş prinsiplər real həyatda öz təcəssümünü tapdı”,- deyən S.Qafarova əlavə edib ki, ölkəmizin Konstitusiyası ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamağı və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərməyi başlıca niyyətlərdən biri kimi bəyan edib. Spiker deyib ki, indiki qlobal geosiyasi dinamika şəraitində məhz Konstitusiya qaydası dövlətlərə öz dayanıqlığını qorumaqda və milli maraqları əsasında inkişaf etməkdə kömək göstərir: “Azərbaycanın təcrübəsi də əyani surətdə göstərir ki, Konstitusiya xalqın iradəsindən və milli dəyərlərdən güc alanda, hakimiyyət ilə xalq arasında uzlaşmanı təmin edəndə cəmiyyəti birləşdirən və dövlətin müstəqilliyini qoruyan böyük qüvvəyə çevrilir. Azərbaycan Respublikasının Konstitusiyası xalqımızın tarixi təcrübəsini və azadlıq əzmini əks etdirir. O, milli birliyimizi möhkəmləndirir və cəmiyyətin sabit inkişafına kömək göstərir”.

Çıxış edən Birləşmiş Ərəb Əmirlikləri Federal Milli Şurasının sədri Saqr Qobaş bildirib ki, Azərbaycanın Konstitusiyası ölkənin suverenliyini möhkəmləndirib, keçmişin bütün çətinliklərini indiyə və gələcəyə doğru çevirmək üçün yeni bir mərhələ yaradıb. Həmçinin coğrafi imkanları dayanıqlı inkişaf üçün ümidverici fürsətlərə çevirib. Onun sözlərinə görə, son 30 il ərzində Azərbaycan sübut etdi ki, inkişaf yalnız milli sərvətin nəticəsi deyil, həm də milli iradənin məhsuludur: “Bu güclü institusional fəaliyyətin nəticəsi və müxtəlifliyi əhatə edən dövlət, cəmiyyət, həmçinin milli kimliklər arasında balansı yaratmaq bacarığıdır. Azərbaycan təcrübəsi göstərir ki, konstitusiya təkcə hüquqi mətn deyil, dəyərlərin təzahürüdür, həmçinin xalqla dövlət arasında sosial və etik müqavilədir. Eyni zamanda, miras və yenilik, tarix və coğrafiya arasında bir tarazlıqdır”.

Pakistan Senatının sədri Syed Yusuf Raza Gilani çıxışında deyib ki, hazırda mürəkkəb çağırışların mövcud olduğu bir dünyada yaşayırıq. Məhz Konstitusiya dövlət və xalq arasında körpü rolunu oynayaraq, təməl funksiyasını yerinə yetirir. Bu konsepsiya hər zaman millətlərin kollektiv şüurunda əsas təməl olaraq qalır. “Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda milli birlik, kimlik və sadiqlik məsələləri möhkəmlənib. Prezident İlham Əliyevin məhz bu ili Azərbaycanda “Konstitusiya və Suverenlik İli” elan etməsi onun öz dəyərlərinə sadiqliyinin bariz nümunəsidir. Bu gün suverenlik müxtəlif sınaqlarla üz-üzədir. Gəlin suverenlik və bərabərlik prinsiplərinə birlikdə sadiq qalaq”, - deyə Pakistan Senatının sədri əlavə edib.

Rumıniya Senatının sədri Mircea Abrudean isə Azərbaycan xalqı və parlamenti ilə tərəfdaşlığı yüksək qiymətləndirib. O bildirib ki, parlamentlər real nəticələrə fokuslandıqda, effektiv iş ortaya qoyurlar:”Bir çox sahədə əməkdaşlıq edə bilərik. Məsələn, rəqəmsallaşma sahəsində sizin “ASAN xidmət” modeliniz var. Biz bu modeli Rumıniyada tətbiq edə bilərik və artıq bu istiqamətdə işlərə başlamışıq. Nəqliyyat və enerji sahələri ilə əlaqədar komitələrimizin əməkdaşlığının genişləndirilməsi üçün illik görüşlər keçirilməlidir”.

Tacikistan Ali Məclisinin Nümayəndələr Palatasının sədri Fayzali İdizoda bildirib ki, bütün xalqlar arasında dostluq, bərabərlik, qarşılıqlı hörmət Azərbaycan Konstitusiyasının əsas prinsiplərindən biridir. Konstitusiya Azərbaycanın baş siyasi hüquqi sənədi kimi ölkənin beynəlxalq nüfuzunu möhkəmləndirib. Onun sözlərinə görə, Azərbaycanın Konstitusiyası ölkədə davamlı inkişafın və daxili sabitliyin möhkəm əsaslarını yaradıb: “Azərbaycanda milli birliyin və daxili sabitliyin əsasları qoyulub. Bu da müasir geosiyasi reallıqlar fonunda Konstitusiyanın müstəqillik və suverenlik rolunu daha aydın nümayiş etdirir. Konstitusiya dövlətin və cəmiyyətin davamlı inkişafı, daxili sabitliyin əsas təminatçısıdır. Beynəlxalq qeyri-sabitlik şəraitində dövləti qorumaq yalnız cəmiyyətin birliyi, konstitusion dəyərlərə hörmət nəticəsində mümkündür”.



Serbiya Milli Assambleyasının sədr müavini Covan Canciç çıxışında qeyd edib ki, Konstitusiyanın qəbul edilməsi siyasi və ictimai hadisədir. Bu hadisənin əhəmiyyəti Azərbaycanın timsalında aydın görünür. Çünki bu ölkə öz Konstitusiyası ilə beynəlxalq ictimaiyyətin nüfuzlu üzvünə çevrilib. Bu gün Azərbaycan dünyada sürətlə inkişaf edən ölkə nümunəsidir, öz vətəndaşları üçün isə rifah və firavanlığın diyarı olmaq yolunda inamla irəliləməkdədir.

Onun sözlərinə görə, Konstitusiya dövlətin hüquqi aktlar sistemində ən yüksək hüquqi qüvvəyə malik olan sənəddir: “Konstitusiya ölkənin ictimai quruluşunu müəyyənləşdirir, mühüm münasibətləri tənzimləyir, dövlət orqanlarının quruluşunu və fəaliyyətini ətraflı şəkildə müəyyən edir. Eyni zamanda, vətəndaşların hüquq və azadlıqlarını, həmçinin onların vəzifələrini şəffaf və açıq şəkildə bəyan edir”.

Türkiyə Böyük Millət Məclisinin üzvü Şamil Ayrım isə bildirib ki, Konstitusiya hər bir dövlətin varlığını, milli iradəsini, müstəqilliyini əbədiləşdirən ali sənəddir. Bu, dövlət suverenliyinin simvoludur. Onun sözlərinə görə, 1995-ci il noyabrın 12-də qəbul edilmiş Azərbaycan Konstitusiyası Azərbaycan xalqının taleyində yeni fəslin başlanğıcını qoydu: “Həmin gün Azərbaycan bir daha qanunun aliliyinə, insan hüquqlarına və demokratik dəyərlərə əsaslanan müasir dövlət qurmaq iradəsini dünyaya bəyan etdi. Bu böyük tarixi addımın memarı da Ümummilli Lider Heydər Əliyevdir. Bu gün bu miras Prezident İlham Əliyevin rəhbərliyi altında ədalət, inkişaf, milli birlik prinsipləri ilə daha da möhkəmlənib”.

Ş.Ayrım qeyd edib ki, Azərbaycan regionda sülhün, sabitliyin və inkişafın simvoluna çevrilib: “Konstitusiya sadəcə hüquqi mətn deyil, onun hər bir maddəsi xalqın iradəsini, ədalətə olan inamını, müstəqil yaşama əzmini nümayiş etdirir. Azərbaycan xalqı 44 günlük Vətən müharibəsi və 23 saatlıq antiterror əməliyyatı zamanı öz suverenliyini bərpa edib. 30 il əvvəl qəbul edilmiş Konstitusiya həm də gələcəyin kompasıdır. Konstitusiyanın ildönümü bizə bir həqiqəti xatırladır ki, ədalətin təməli hər zaman Konstitusiyadır”.

Tədbirdə digər çıxış edənlər də beynəlxalq konfransın əhəmiyyətini və konstitusiyanın dövlətlərin həyatındakı önəmli rolundan bəhs ediblər.

# Azərbaycan-Belarus əlaqələri strateji səviyyəyə yüksəlib

## Hökumətlərarası Komissiyanın 15-ci iclasında əməkdaşlığın yeni istiqamətləri müəyyənləşib

Oktyabrın 28-də Azərbaycan və Belarus Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın 15-ci iclası keçirilib. İclasda Azərbaycan tərəfindən Baş nazirin müavini, komissiyanın həmsədri Samir Şərifov, Belarus tərəfindən isə Baş nazirin müavini, komissiyanın həmsədri Natalya Petkeviç rəhbərlik edib. Tərəflər Azərbaycan və Belarus arasında münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edərək vurğulayıblar ki, ikitərəfli münasibətlər qarşılıqlı etimad, səmimi siyasi dialoq əsasında inkişaf edərək strateji müttəfiqlik səviyyəsinə yüksəlib. Dövlətlərarası əlaqələrin ildən-ilə möhkəmlənməsi iqtisadi əməkdaşlığın yeni istiqamətlərini müəyyən etməklə birgə layihələrin gerçəkləşdirilməsində özünü əks etdirir.

Komissiyanın fəaliyyətinin ötən dövr üzrə nəticələri nəzərdən keçirilib, 2024-2025-ci illəri əhatə edən əməkdaşlıq üzrə Yol Xəritəsinin icrası ilə bağlı müzakirələr aparılıb. Sənaye, kənd təsərrüfatı, maşınqayırma, şəhər təsərrüfatı, farmasevtika, peşə təhsili, nəqliyyat-logistika, ticarət və investisiya sahələrində konkret nəticələr və irəliləyişlər qeyd edilib. Natalya Petkeviç bildirib ki, Gəncə Avtomobil Zavodunda Belarus tərəfi ilə birlikdə kənd təsərrüfatı və xüsusi təyinatlı texnikanın yığılması sənaye sahəsində uğurlu layihələrdən biridir. Bununla yanaşı, Belarusla lift istehsalı və təchizatı sahəsində əməkdaşlıq çərçivəsində Azərbaycanda “Moqilyovliftmaş” ilə lokal istehsalın genişləndirilməsi üzrə işlər davam etdirilir, 2025-ci ildə 200 liftin modernləşdirilməsi və quraşdırılması nəzərdə tutulur.

### Ticarət dövriyyəsi ötən il 500 milyon dollara yaxınlaşıb

S.Şərifov bildirib ki, Azərbaycan və Belarus arasında iqtisadi-ticarət əlaqələri yüksələn xətlə inkişaf edir, tərəflərin birgə işgüzar dialoqunun və təşəbbüskarlığının genişlənməsi sayəsində əmtəə dövriyyələri artır. Qeyd edək ki, iki ölkə arasında ticarət dövriyyəsi ötən il 500 milyon dollara yaxınlaşıb, cari ilin ilk rübündə isə dövriyyə 101 milyon dolları ötüb. Azərbaycanın Belarusa ixracı 82 faiz artaraq 17 milyon dollara çatıb. Bu o deməkdir ki, respublikamız bu ölkənin bazarında qeyri-neft ixracatçısı kimi mövqeyini möhkəmləndirir. Mal mübadiləsinin böyüməsində Belarusda Azərbaycan fəaliyyət göstərən Ticarət Evi də əhəmiyyətli rol oynayır. Ticarət Evi Azərbaycan istehsalı olan spirtli içkilərin, o cümlədən şərabların təşviqində fəal iştirak edir, eyni zamanda, digər yeyinti mallarının ixracının stimullaşmasına çalışır.

Bütün bunlara baxmayaraq, tərəflər ticarət nomenklaturasının genişləndirilməsi, yeni məhsullar və xidmət qruplarının dövriyyəyə daxil edilməsi və tranzit-logistika imkanlarının daha fəal istifadəsini vacib hesab ediblər və əmtəə dövriyyəsinin artırılması üçün potensialın daha böyük olduğu qənaətindədirlər.

Postsovet ölkələri arasında Azərbaycanın dördüncü ən böyük xarici ticarət partnyoru olan Belarus iqtisadi dövriyyəni artırmaq üçün öz imkanlarını səfərbər edəcəyini bəyan edir. Ticarət Sənaye Palatasının sədri Mixail Myatlikovun sözlərinə görə, Azərbaycan Belarusun ticarət tərəfdaşları sırasında 11-ci pillədən 7-yə yüksəlib. Ölkəmizə əsasən dəmiryol vaqonları, kənd təsərrüfatı texnikası, traktorlar və yük maşınları, ağac emalı məhsulları, süd və ət məhsulları, dərmanlar və neft məhsulları tədarük edən Belarus bu bazarın mal çeşidlərini artırmaq üçün partyor şirkətlərlə intensiv müzakirələr davam etdiriləcək. Eyni zamanda, Belarusa neft-kimya məhsulları, spirtli içkilər, fındıq, elektrik transformatorları, şirələr, meyvə və parçaları ixrac edən Azərbaycan dövriyyənin artırılması istiqamətində ticari təşviqləri gücləndirmək niyyətindədir.



### Birgə biznes layihələri icra olunacaq

İki ölkənin biznes icması arasında da birgə layihələr icra etmək üçün yaxşı imkanlar mövcuddur. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədovun sözlərinə görə, sahibkarlar arasında birbaşa əlaqələri genişləndirmək üçün dəstəkləyici addımlar atılması nəzərdə tutulur. Hazırda Belarusda Azərbaycan kapitalı ilə 156 şirkət fəaliyyət göstərir ki, onlar da ölkənin müxtəlif regionlarında istehsal sahələri yaradıblar. Həmin şirkətlərin ticarət zəncirinin artırılmasında fəallığının artırılması prioritetlərdən biridir. Həmçinin, belaruslu iş adamları da Azərbaycanda istehsal və emal müəssisələri qurmaq niyyətindədirlər. “Beltamojservis” şirkətinin logistika ofisinin direktoru Marina Belousova bildirib ki, ölkəsi əsasən aqrar məhsullar istehsal edir və bu baxımdan kənd təsərrüfatı sahəsində daha sıx əməkdaşlıq əlaqələri qurmaq və qarşılıqlı sərmayənin həcmini artırmaq mümkündür. Azərbaycanda xarici sərmayə üçün münbit imkanların mövcudluğunu qeyd edən Belarusun Universal Əmtəə Birjasının sədri Aleksandr Osmolovski isə ikitərəfli biznes dialoqlarının şaxələnməsi üçün ölkəsinin müxtəlif stimullaşdırıcı alətlərdən istifadə edəcəyini vurğulayıb.

### Yeni iqtisadi ünvan azad edilmiş ərazilərdir

Belarus Azərbaycanın azad edilmiş ərazilərində də investisiya layihələri icra etmək niyyətindədir. Hazırda birgə əməkdaşlıq çərçivəsində Ağdam rayonunun Qızıl Kəngərli kəndində Belarus tərəfi ilə birgə aqroşəhər layihəsi üzərində işlər davam edir. Layihə üzrə Baş plan təsdiqlənib və aqrar-istehsalat klasterinin yaradılması üzrə işçi qrupu formalaşdırılıb. Eyni zamanda, farmasevtika sahəsində Belarus texnologiyasının Azərbaycan ərazisində tətbiqi, dərman və vaksinlərin yerli istehsalına dair əməkdaşlıq istiqamətində müzakirələrin yekunlaşma mərhələsində olduğu bildirilib. Belarusun sənaye şirkətləri Qarabağ və Şərqi Zəngəzurda təmsil olunmaq maraqlarını gizlətmir, eləcə də zəngin mineral ehtiyatlara və torpaq resurslarına malik bu bölgədə aqrar layihələrin icrasında iştirak etmək istəyir.

MDB regionunda kənd təsərrüfatı texnikasının istehsalı, maşın və avadanlıqların tədarükü sahəsində liderlərdən biri olan Belarus azad ərazilərdə ağır sənaye texnikalarının istehsalı şəbəkəsi qurmaq üçün hökumətə müraciət edib. Eləcə də heyvandarlığın inkişafı ilə bağlı belaruslu iş adamlarının təklifləri dəyərləndirilir. Cins mal-qara üzrə MDB-nin lideri olan Belarusun heyvandarlıq müəssisələri yaratması bu bölgə üçün xüsusi önəm daşıya bilər. Bu, həmin bölgədə və Azərbaycanda süd məhsullarına, iribuynuzlu mal-qara ətinə tələbatı tam təmin etmək üçün də xüsusi əhəmiyyət kəsb edir və Azərbaycanın ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə dərin töhfə verə bilər. Eləcə də Belarus təcrübəsi üzrə Qarabağda aqroşəhərciklərin salınması böyük bir iş yerləri, məşğulluq proqramlarının gerçəkləşməsi deməkdir.

Ümumiyyətlə, Belarus Respublikasının Azərbaycanla iqtisadi bağlantılarında yeni səhifə açmaq üçün təklif və planları olduqca geniş və çoxşaxəlidir. Biznes-forumda aparılan müzakirələr zamanı gələcək əlaqələrin yeni xəritəsinin cızılması, habelə razılaşdırılmış yeni sazişlər nəzərdə tutulan hədəflərə çatmağa imkan verəcək.

Qeyd edək ki, Hökumətlərarası Komissiyanın 15-ci iclasında Azərbaycan və Belarus arasında iqtisadi əməkdaşlığın genişləndirilməsinə dair Birgə Protokol imzalanıb. Sənəddə yeni layihələrin icrası, birgə işçi qruplarının fəaliyyətinin koordinasiyası və konkret tədbirlərin həyata keçirilməsi üzrə öhdəliklər əksini tapıb. Tərəflər münasibətlərin qarşılıqlı fayda və dəstək prinsipləri əsasında ardıcıl olaraq genişləndirilməsini bəyan ediblər.

*ELBRUS CƏFƏRLİ*




# AvroNest iclasında iştirakdan imtina - səbəb ədalətsiz mövqelərdir

## Azərbaycan prinsiplərinə sadiqdir: Bakı ədaləti, AvroNest isə ikili standartları seçir

Beynəlxalq hüquqa, ədalətə və sülh prinsiplərinə sadiqlik -Azərbaycanın xarici siyasətinin təməl sütunları əsasən bu kimi qlobal dəyərlər üzərində bərqərar olub. Son illər regionda formalaşan yeni geosiyasi mühit göstərdi ki, rəsmi Bakı yalnız hərbi-siyasi deyil, həm də diplomatik meydanda öz mövqelərini qətiyyətlə qoruyur. Azərbaycan heç vaxt gücə, təzyiqə və ikili standartlara əsaslanan münasibət modelini qəbul etməyib. Əksinə, ölkəmiz hər zaman beynəlxalq hüququn aliliyinə, qarşılıqlı hörmət və suverenliyə əsaslanan ədalətli əməkdaşlıq formatlarını dəstəkləyib.

Bu prinsipial mövqe Azərbaycanın beynəlxalq təsisatlarda, o cümlədən Avropa qurumlarında fəal iştirakına və nüfuzunu təmin edən aparıcı amillər sırasındadır. Bakının BMT, Qoşulmama Hərəkatı, TDT və başqa beynəlxalq strukturlarda aparıcı rolu qlobal problemlərin həllində əsl təşəbbüskarlıq nümunəsi yaradıb.

**İrəvanda keçiriləcək plenar iclasda iştirak etməyəcəyik**

Təəssüf ki, bəzi beynəlxalq platformalar səmimi və qarşılıqlı əlaqələrin inkişafında maraqlı olmur - əksinə, ədalətdən uzaq siyasi sifarişlərlə hərəkət edir. Bunu AvroNest Parlament Assambleyası (PA) ilə bağlı son müşahidə olunan proseslərdə də görmək mümkündür.  2025-ci il oktyabrın 28-dən 30-dək İrəvanda keçiriləcək AvroNest iclasında Azərbaycan parlament nümayəndə heyətinin iştirak etməmək qərarı da məhz bu kontekstdə dəyərləndirilməlidir. Qeyd edək ki, Azərbaycanı qurumda təmsil edən nümayəndə heyətinin rəhbəri Tahir Mirkişili deyib ki, AvroNest PA-nın yarısını təşkil edən Avropa Parlamentinin qəbul etdiyi sənədlər, bəyanatlar Azərbaycanın dövlət suverenliyinə, ərazi bütövlüyünə qarşıdır: "Bu bəyanatlar həm də regionda Azərbaycan və Ermənistan arasında gedən sülh prosesini dəstəkləmir, əksinə, regionda düşmənçiliyin davam etməsində maraqlı olan qüvvələrin dəyirmanına su tökür. Bu barədə Azərbaycan Milli Məclisi dəfələrlə etiraz bəyanatları verib. Bu ilin avqust ayında Vaşinqtonda Azərbaycan Prezidenti və Ermənistanın baş naziri arasında keçirilən sülh görüşündən sonra bütün dünyanın alqışladığı bu hadisə ilə bağlı Avropa Parlamentinin qeyri-konstruktiv bəyanatı Azərbaycan nümayəndə heyətinin bu təşkilatla əməkdaşlığına ciddi zərbə vurub. Bu səbəblərdən İrəvanda keçiriləcək plenar iclasda iştirak etməyəcəyik. Təşkilatın rəhbərliyinə də bu iradlarımızı bildirmişik. Qeyd edim ki, bu qərar tədbirin Ermənistanda keçirilməsi ilə bağlı deyil. Bu gün Azərbaycan və Ermənistan arasında sülh artıq təmin olunub, münasibətlərin normallaşdırılması istiqamətində əməli addımlar da atılır".

**AvroNest - Qərbin "Şərq tərəfdaşlığı"...**

Qeyd edək ki, AvroNest Parlament Assambleyası 2009-cu ildə Avropa Parlamentinin təşəbbüsü ilə yaradılıb və Şərq tərəfdaşlığı ölkələri - Azərbaycan, Ermənistan, Gürcüstan, Moldova, Belarus (2021-ci ilin iyun ayında Aİ-nin Şərq tərəfdaşlığı təşəbbüsündə iştirakını dayandırıb) və Ukrayna ilə Avropa İttifaqı arasında siyasi dialoqun platforması kimi nəzərdə tutulub. Assambleyanın məqsədi tərəflər arasında iqtisadi, enerji, sosial və təhlükəsizlik sahələrində əməkdaşlığı gücləndirmək idi. Azərbaycan bu quruma ilk illərdən etibarən üzv kimi qoşulub və konstruktiv əməkdaşlıq xəttini davam etdirib. Bakı AvroNest çərçivəsində enerji təhlükəsizliyi, nəqliyyat dəhlizləri, dayanıqlı inkişaf, demokratiya və sülh təşəbbüsləri kimi mövzularda mütəmadi təkliflər irəli sürüb.

Lakin zaman keçdikcə AvroNest platforması öz ilkin missiyasından uzaqlaşmağa başladı. Siyasi balansın pozulması, bəzi Avropa deputatlarının regiondakı reallıqları görməməsi və açıq ermənipərəst mövqe tutması bu qurumun obyektivliyinə ciddi zərbə vurdu. Azərbaycan üçün belə tərəfdaşlıq modeli məqbul sayıla bilməz. Bu təsisat beynəlxalq dialoq üçün yeni platformalar yaratmaq cəhdi idi. Lakin qərarsızlıq, qərəzli diskurs və ikili standartlar bu təsisatı yararsız bir quruma çevirdi. Azərbaycan dəfələrlə bu qurumdakı haqsız qərarlara görə fəaliyyətini dayandırmaq istəyib.

**Vaşinqton görüşündən sonra yaranan qeyri-konstruktiv davranışlar...**

Azərbaycan 44 günlük Vətən müharibəsində beynəlxalq hüquqa əsaslanaraq öz ərazilərini azad edib və sülh çağırışlarını dəfələrlə irəli sürüb. Amma Avropa Parlamentinin bəzi dairələri hələ də 30 illik işğal faktını unudaraq, sanki tarixə göz yumur, yeni reallıqları qəbul etmir. Halbuki 2020-ci ildən sonra regionda sülh, əməkdaşlıq və iqtisadi inteqrasiya üçün nadir bir fürsət yaranıb. AvroNest nümunəsində olduğu kimi, ədalətə əsaslanan münasibət qurmaq əvəzinə, birtərəfli bəyanatlarla çıxış edən, Ermənistanın manipulyativ ritorikasını dəstəkləyən qurumlar Azərbaycanla münasibətləri pozmaqla yanaşı, Avropanın regiondakı etibarlılığını da sarsıdır. Qeyd edək ki, 2025-ci ilin avqust ayında Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən sülh görüşü beynəlxalq ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanmışdı. Həmin görüş Cənubi Qafqazda sabitliyin bərqərar olması üçün mühüm addım kimi dəyərləndirilirdi. Ancaq təəssüf ki, Avropa Parlamentinin bu prosesdən dərhal sonra qəbul etdiyi bəyanatlar bu müsbət ruhu kölgələndirdi. Sülh təşəbbüsünü alqışlamaq əvəzinə, Avropa deputatlarının bir qismi yenidən "insan hüquqları", "demokratiya" pərdəsi altında Azərbaycanın ərazi bütövlüyünə və daxili siyasətinə qarışmağa çalışdı. Azərbaycan nümayəndə heyətinin İrəvanda keçiriləcək AvroNest plenar iclasında iştirak etməmək qərarı da bu qeyri-konstruktiv yanaşmalara prinsipial cavabdır. Çünki belə şəraitdə iştirak yalnız ədalətsiz mövqeləri legitimləşdirmək olardı. Göründüyü kimi, Azərbaycan dialoqa yox demir, amma bu dialoq ədalət, qarşılıqlı hörmət və beynəlxalq hüquqa əsaslanmalıdır. Əks halda, bu cür platformalar sülhə deyil, qarşıdurmaya xidmət edəcək.

**AŞPA-da da eyni hal təkrarlanmışdı...**

Baş verənlərə daha geniş aspektdən yanaşdıqda bəzi mətlələr daha da aydın olur - bu analogiya tək AvroNest ilə məhdudlaşmır. Xatırlasaq, 2024-cü ilin yanvarında Azərbaycan da, 2025-ci ilin əvvəlində isə Gürcüstan da Avropa Şurası Parlament Assambleyasında (AŞPA) fəaliyyətini dayandırmışdı. Səbəb isə təxminən eynidir - ikili standartlar, qeyri-obyektiv qərarlar və reallıqlardan uzaq bəyanatlar. AŞPA da uzun illərdir ki, öz ilkin missiyasını unudaraq siyasi təzyiq vasitəsinə çevrilib. Azərbaycan nümayəndə heyətinin çıxışı bu quruma xəbərdarlıq idi: beynəlxalq münasibətlər ədalət və bərabərlik prinsipi üzərində qurulmalıdır. Bu addım isə Bakının təcridi yox, əksinə, prinsipiallığının göstəricisidir. Çünki Azərbaycanın Avropanın bir çox ölkələri ilə ikitərəfli səviyyədə yüksəksəviyyəli əməkdaşlıq münasibətləri var və bu münasibətləri uğurla davam etdirir - istər enerji, istər nəqliyyat, istərsə də təhlükəsizlik sahəsində region ölkələri ilə Bakı arasında mühüm dialoq mövcuddur. Deməli, problem Avropanın özü ilə deyil, müəyyən siyasi dairələrin yönləndirdiyi qurumların yanlış siyasətindədir. AŞ PA, AvroNest kimi qurumların "mövqeyi" birmənalı əşkildə Azərbaycanın Qarabağ regionunda yaratdığı yeni reallıqlardan qaynaqlanır. Bəli, Azərbaycan əraziləri 30 il işğal altında olduğu dövrdə insan haqlarını fəaliyyətinin ali prinsipi elan edən təşkilatlar Azərbaycanın 1 milyon qaçqın və köçkünün vəziyyəti ilə bağlı susurdu. Azərbaycan öz torpaqlarını işğaldan azad, ərazi bütövlüyünü, suverenliyini bərpa etdikdən sonra isə onlar ermənipərəst qüvvələrin ölkəmizə qarşı təşkil etdiyi qarayaxma kampaniyalarının iştirakçısına çevrilirlər.

**İtirən Avropadır...**

Azərbaycan AvroNest və ya AŞPA kimi platformalarda iştirakdan imtina etməklə öz milli maraqlarını qoruyur. Amma bu prosesdə itirən tərəf əslində Avropanın özüdür. Çünki Avropa enerji təhlükəsizliyinin təminində, "yaşıl keçid" siyasətində və Qafqazla Asiyanı birləşdirən kommunikasiya dəhlizlərində məhz Azərbaycanın roluna ehtiyac duyur. Bakı Avropanın etibarlı enerji tərəfdaşı, Cənub Qaz Dəhlizinin əsas aparıcı qüvvəsidir.

Bundan əlavə, Azərbaycan "Orta Dəhliz"in inkişafında, Zəngəzur və digər regional nəqliyyat layihələrində strateji mövqeyə malikdir. Avropa üçün bu dəhlizlər təkcə iqtisadi yox, həm də siyasi və təhlükəsizlik baxımından həyati əhəmiyyət daşıyır.

Əgər Avropa qurumları ədalətli, bərabərhüquqlu tərəfdaşlıq modelini qorumaq istəyirsə, o zaman reallıqları qəbul etməli, Cənubi Qafqazda sülhün və əməkdaşlığın əsas təminatçısı olan Azərbaycanla konstruktiv əməkdaşlıq etməlidir. Azərbaycan üçün sülh yalnız regionun deyil, həm də Avropanın sabitliyi deməkdir. Cənubi Qafqazda sabitlik Avropa bazarlarına, enerji şəbəkələrinə və nəqliyyat yollarına müsbət təsir göstərəcək. Buna görə də sülh prosesinə kölgə salmaq istəyənlər əslində öz gələcəklərinə zərbə vururlar.

Beləliklə, aydın olur ki, Azərbaycanın AvroNest iclasında iştirak etməmək qərarı emosional reaksiya deyil, prinsipial mövqedir. Rəsmi Bakı sübut etdi ki, ədalətsiz münasibətlərin bir hissəsi olmaq niyyətində deyil. Qarşılığında Avropa qurumları da başa düşməlidirlər ki, Azərbaycan bu gün nə 90-cı illərin zəif dövləti deyil - Azərbaycan regionun iqtisadi və siyasi reallıqlarını müəyyənləşdirən aparıcı aktordur. Bakı Avropa ilə bərabərhüquqlu əməkdaşlığa açıqdır, amma bu əməkdaşlıq qarşılıqlı hörmət və beynəlxalq hüquqa əsaslanmalıdır. Əks halda, bu platformalar öz əhəmiyyətini itirəcək. Çünki Azərbaycanın xarici siyasətinin ən mühüm prioritetlərini təşkil edən sülh, əməkdaşlıq və qarşılıqlı hörmət prinsipləri üzərində qurulan münasibətlər həm Azərbaycan, həm də Avropa üçün real dividendlər və sabit gələcək vəd edir.

***P.SADAYOĞLU***

# Təqaüdlər nə qədər artacaq?

## 2026-cı ildə orta aylıq pensiyanın 579 manat olacağı proqnozlaşdırılır

Hazırda ölkədə yaşayan 1,1 milyondan çox pensiyaçını düşündürən əsas mövzu 2026-cı ildə pensiya və təqaüdlərin nə qədər artacağı ilə bağlıdır. Bu mövzu ətrafında müxtəlif qeyri-dəqiq rəqəmlər səsləndirilir ki, bu da cəmiyyətdə suallar yaradır. Məlumdur ki, pensiyaların artımı əmək qanunvericiliyinə əsasən, ölkədəki illik orta aylıq əməkhaqqının illik artımı tempinə əsasən indeksasiya edilir. Ona görə də pensiyaların indeksləşdirilərək artımı 2025-ci ilin yekun illik orta əməkhaqqı artımına uyğun həyata keçiriləcək.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2025-ci ilin yanvar-sentyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 9,7 faiz artaraq 1093,8 manat təşkil edib. Əgər ilin sonunda bu rəqəm olduğu səviyyədə qalsa, pensiyalar da 9,7 faiz artmış olacaq. Ancaq 2025-ci ilin yekun sosial-iqtisadi makroiqtisadi göstəriciləri açıqlamadan orta aylıq əməkhaqqı barədə tam yekun rəqəm söyləmək düzgün olmazdı. Bunun üçün növbəti ilin yanvar ayını gözləmək lazımdır. Həmin dövrdə 2025-ci ilin yekun makroiqtisadi göstəriciləri, o cümlədən əməkhaqqı və inflyasiya rəqəmi bəlli olduqdan sonra pensiyanın indeksasiyası üzrə nəticə də konkretləşcək. Hökumətin təxmini proqnozlarına görə, cari ildə orta aylıq əməkhaqqının 9,5-10 faiz civarında olacağı fərz edilir. Bu halda pensiyaların indeksasiyası ikirəqəmli artım üzrə aparılacaq. Məsələn, 2025-ci ilin dekabr ayında pensiyası 450 manat olan şəxsin indeksasiya nəticəsində pensiya məbləği təxminən 45 manat artmış olacaq.

**Bütün növ əmək pensiyaları indeksasiya olunacaq**

Qeyd edək ki, pensiya artımları bütün növ əmək pensiyaçılarına, o cümlədən də xüsusi şərtlərlə pensiya alan şəxslərin pensiyalarına da şamil olunacaq. Pensiya alanların say tərkibinə təkcə, əmək pensiyaçıları daxil deyil, bura əlillər, müavinət alanlar və sair kateqoriyadan alan pensiyaçılar da daxildir. Yəni, artım onları da əhatə edəcək. Son bir ildə əmək və pensiya qanunvericiliyinə edilmiş dəyişikliklər sayəsində əmək pensiyası hüququ əldə edənlərin sayı artıb.




"Əmək pensiyaları haqqında" qanuna (Maddə 9. Güzəştli şərtlərlə əmək pensiyası hüququ olan digər şəxslər) edilmiş dəyişikliklərdən sonra incəsənətin xüsusi sahələrinin, yeraltı, əmək şəraiti xüsusilə zərərli və ağır olan işlərdə çalışan şəxslərin pensiya yaşı həddinin 5 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququ alması, eləcə də hərbi qulluqçuların hərbi xidmət dövrü üzrə müddətə görə, güzəştli pensiya hüququ qazanması sayəsində son bir ildə xüsusi şərtlərlə pensiya alanların da sayında əhəmiyyətli artımlara səbəb olub. Həmçinin, 2023-cü ilin yanvar ayında ötən ilin eyni dövrü ilə müqayisədə yaşa və əlilliyə görə müavinət alanların, ailə başçısını itirməyə və digər müavinət növləri ilə əhatə edilənlərin də sayında artım qeydə alınıb.

Hökumətin ssenarilərinə əsasən, ümumilikdə, 2026-cı ildə Azərbaycanda pensiyalar orta hesabla 579,2 manat səviyyəsində proqnozlaşdırılır. Bu, 2025-ci ilin gözlənilən 537 manat orta pensiyasından təxminən 7,9 faiz çoxdur. "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsinə əsasən, büdcədə əmək pensiyalarının ödənişinə ayrılan vəsait 7 milyard 992,88 milyon manat səviyyəsində nəzərdə tutulub ki, bu da 2025-ci ilin təsdiqlənmiş proqnozundan 10,85 faiz və ya 782,35 milyon manat çoxdur.

Onu da xatırladaq ki, 2025-ci ildə Dövlət Sosial Müdafiə Fondunun (DSMF) yığımlarında da artım nəzərə çarpmaqdadır. Cari ilin yanvar-sentyabr aylarında fondun büdcə daxilolmaları proqnozla müqayisədə 6 faiz və ya 342 milyon manat çox olmaqla 5 milyard 889 milyon manat təşkil edib. Fondun gəlirlərinin tərkibində məcburi dövlət sosial sığorta daxilolmaları həmin dövrdə proqnoza nisbətən 8 faiz və ya 331 milyon manat artaraq 4 milyard 663 milyon manat olub. Bu dövrdə DSMF-nin xərcləri 5 milyard 628 milyon manat təşkil edib ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 9 faiz və ya 481 milyon manat çoxdur. Dövlət büdcəsindən sosial təyinatlı xərclərin maliyyələşdirilməsi ilə bağlı ayrılan vəsaitlərlə birlikdə 9 ay ərzində pensiya, müavinət, təqaüd və ünvanlı dövlət sosial yardımları üzrə əhaliyə 7 milyard 714 milyon manat vəsait ödənişi təmin edilib. Bu, ötən ilin müvafiq dövrünə nisbətən təqribən 577 milyon manat və ya 8,76 faiz çox maliyyələşmə deməkdir. Bu dinamikasının gələn il büdcə ayırmaları ilə yanaşı, DSMF-nin büdcəsinin gəlirləri hesabına artacağı istisna olunmur.

**Pensiya kapitalı inflyasiyaya uyğun artacaq**

Növbəti ildən əmək pensiyaları ilə yanaşı, vətəndaşların fərdi hesabında toplanan pensiya kapitalının da artması nəzərdə tutulur. "Əmək pensiyaları haqqında" Qanuna əsasən, vətəndaşların pensiya kapitalı ölkədəki inflyasiya rəqəminə uyğun olaraq indeksləşdirilərək artırılacaq. Həmin qanunun 29.1-1 maddəsində qeyd olunur ki, sığortaolunanların fərdi şəxsi hesabının sığorta hissəsində qeydə alınan pensiya kapitalı ildə bir dəfə istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq indeksləşdirilir. Hazırda ölkəmizdə inflyasiya 5,7 faiz təşkil edir. Hökumətin proqnozlarına görə, 2025-ci ildə illik inflyasiyanın 5,5-5,8 faiz civarında olacağı ehtimal edilir. Mərkəzi Bank 2025-ci il üçün inflyasiya proqnozuna yenidən düzəliş edib. Mərkəzi Bankın bir neçə gün əvvəl illik inflyasiya proqnozuna etdiyi dəyişikliyə əsasən, istehlak qiymətləri indeksi 6 faiz artacaq. Əgər həmin proqnozda istehlak bazarının situasiyalarına uyğun olaraq tam təsdiqini tapsa və Mərkəzi Bankın proqnozunda kənarlaşma olmazsa, vətəndaşların pensiya kapitalı təxminən 6 faiz artırılacaq. Misal üçün vətəndaşın 2026-cı il yanvarın 1-nə olan dövrdə pensiya yığım kapitalının məbləği əgər 50 min manat təşkil edirsə, bu o deməkdir ki, onun indeksasiyadan sonra kapital (50.000 X 6% =3.000) hesabı 53 min manata çatdırılacaq.

**Ünvanlı sosial yardım alanlar üçün şad xəbər**

Gələn il ünvanlı sosial yardımın məbləği də əhəmiyyətli artımla gözlənilir. Məlum olduğu kimi, 2026-cı ildən Azərbaycanda yaşayış minimumu və ehtiyac meyarının 300 manata çatdırılması nəzərdə tutulur. Ehtiyac meyarının artımı isə ünvanlı sosial yardımın aylıq məbləğinin artırılması və müraciətin genişləndirilməsi baxımdan əsas düstur və metodoloji baza rolunu oynayır. Bu baxımdan ehtiyac meyarının artırılması ünvanlı sosial yardım proqramı çərçivəsində vətəndaşlarımızın aldığı yardım məbləğinin gələn ildən artmasına səbəb olacaq. Eyni zamanda, ehtiyac meyarı artırıldığı üçün daha çox ailə ünvanlı sosial yardıma müraciət edəcək. Məsələn, hazırda bir ailənin 5 üzvünün rəsmi aylıq gəliri 900 manatdırsa, həmin ailə üçün 1425 manat (5 nəfər X 285 manat) ehtiyac meyarı, yəni xərc hesablanır. Yəni ailənin xərci ilə gəliri arasındakı 525 manat fərqi (1425 manat- 900 manat) dövlət ödəyir. 2026-cı ildən ehtiyac meyarının həddi 300 manata yüksəldiyi halda yardımın məbləği də böyümüş olacaq. Belə ki, bu rəqəm 5 nəfərli ailə üçün 1500 manata yüksəlir (5 nəfər X 300 manat). Əgər həmin ailənin aylıq gəliri olduğu kimi qaldığı halda, yəni 900 manat təşkil etdiyi təqdirdə, ona ödənilən ünvanlı sosial yardımın məbləği 525 manatdan 600 manata (1500 manat- 900 manat) yüksəlmiş olacaq. Bu, nominal ifadədə 75 manat, faizlə 15 faiz artım deməkdir. Qeyd edək ki, hazırda 80 min 300 aztəminatlı ailənin 353 min 300 üzvü ünvanlı dövlət sosial yardımı alır. Bu isə o deməkdir ki, artımlardan faydalanan ailələrin sayı kifayət qədər çox olacaq.

Bir məqamı da xüsusi olaraq nəzərə almaq lazımdır ki, Azərbaycanda artıq inflyasiya birrəqəmli həddə düşüb, bu isə orta aylıq pensiya məbləğinin və digər sosial artımların artım tempinin inflyasiya rəqəmini üstələməsinə səbəb olacaq. Yəni artımlar nominal dəyər baxımından alıcılıq qabiliyyətinin yaxşılaşmasına imkan verəcək.

***E.CƏFƏRLİ***

# Dayanıqlı iqtisadi artım potensialı yaranıb

## Dünya Bankı ölkəmizlə bağlı Dövri İqtisadi İcmal hesabatı təqdim edib

Dünya Bankı (DB) Azərbaycan üzrə Dövri İqtisadi İcmal hesabatını ictimaiyyətə açıqlayıb. Sənəddə ölkəmizin makroiqtisadi göstəriciləri və perspektivləri barədə ətraflı məlumatlar öz əksini tapıb. Hesabatda son dövrlərdə qeydə alınan iqtisadi meyillərin təhlili və ortamüddətli perspektivlər və risklər üzrə proqnozlara geniş yer verilib. Təqdimat mərasimində çıxış edən DB-nin Azərbaycan üzrə böyük iqtisadçısı Nadir Ramazanov bildirib ki, Azərbaycan hökumətinin həyata keçirdiyi ardıcıl və iradəli islahatlar biznes sektorunda mühüm inqilabi dəyişikliklərə səbəb olub, iqtisadi artım və maliyyə dayanıqlılığı güclənib. Son on ildə qlobal və regional sarsıntılara qarşı əhəmiyyətli dayanıqlılıq nümayiş etdirən Azərbaycan əhəmiyyətli iqtisadi, biznes, vergi islahatları ilə sahibkarlıq fəaliyyətinin dəstəklənməsinə töhfələr verib.

N. Ramazanov vurğulayıb ki, son illərdə Azərbaycanda əhəmiyyətli vergi islahatları həyata keçirilib, əmək münasibətlərində şəffaflığın artırılması və qeyri-rəsmi məşğulluğun azaldılması təşviq olunur. Dövlət müəssisələrinin idarəçiliyində də mühüm irəliləyişlər əldə olunub, o cümlədən əsas dövlət korporasiyalarında ilk dəfə olaraq müşahidə şuralarının və idarə heyəti komitələrinin yaradılması təmin edilib.




### Rəqabət Məcəlləsi azad bazar üçün geniş meydan açıb

2024-cü ildə qəbul edilən Rəqabət Məcəlləsi mühüm sənəd kimi rəqabətə dair əsas qaydaları və tənzimləmələri özündə əks etdirməklə, azad bazar institutları üçün geniş meydan açıb. Sənəd azad rəqabət mühitinin təmin olunduğu qabaqcıl Avropa ölkələrinin mövcud təcrübəsinə əsaslanmaqla hazırlanmaqla, biznes assosiasiyalarının və sahibkarların niyyət və baxışlarını əks etdirir. Məcəllədə təbii inhisar sahələrinə nəzarət alətləri təkmilləşdirilib, onların fəaliyyətində şəffaf və çevik nəzarəti təmin edən müddəalar əks olunub. Məcəllə əsas etibarilə kiçik və orta biznes subyektlərinin bazara girişinin və bazarda inkişafının qarşısını alan maneələrin ortadan qaldırılmasına xidmət edir. İlk növbədə biznesin maraqlarının müdafiəsi ilə bağlı əhəmiyyətli detallar öz əksini tapıbdır ki, bura ədalətli rəqabət mühitinin təmin olunması, inhisarçılığa qarşı təsirli mübarizə mexanizmlərinin tətbiqi, haqsız rəqabət hallarının qarşısının alınması ilə bağlı hədəflər daxildir. Bir sözlə, Rəqabət Məcəlləsi ölkə iqtisadiyyatının inkişafı, biznes mühitinin əlverişliliyinin artırılması, azad sahibkarlığın təşviqi baxımından mühüm əhəmiyyət kəsb etməklə, ölkədə sahibkarların sağlam rəqabət şəraitində fəaliyyətinin hüquqi əsaslarını müəyyən etməkdədir. Eyni zamanda istehlakçıların hüquqlarının müdafiəsini, məhsul və xidmətlərin keyfiyyətinin daha da artırılmasına imkanlar yaradır.

### Azərbaycan Cənubi Qafqazda strateji mövqeyini gücləndirib

DB-nin Azərbaycan üzrə böyük iqtisadçısı onu da qeyd edib ki, reallaşdırılan iqtisadi islahatlar Azərbaycanın Cənubi Qafqazda strateji mövqeyini gücləndirib, zəngin enerji resurslarından daxil olan gəlirlərin şaxələndirilməsi güclü iqtisadi artımı və yoxsulluğun əhəmiyyətli dərəcədə azalmasını təmin edib. Hökumətin makroiqtisadi sabitliyə yönəlmiş müdrik yanaşması ölkənin qlobal şoklara, o cümlədən 2015-ci ildəki neft qiymətlərinin çöküşü və COVID-19 pandemiyası kimi ağrılı sınaq dövrlərində təhdidlərə güclü müqavimət göstərməklə iqtisadi dinamikaya səbəb olub. Nəticədə fiskal və xarici ticarət profisitləri, aşağı dövlət borcu və əhəmiyyətli makroiqtisadi ehtiyatları üzrə resurslar qorunub saxlanılıb. Son təhlillər göstərir ki, həmin iqtisadi kursa söykənən siyasət tədbirləri sayəsində ölkədə müasir iqtisadi mühit daha da güclənib, qeyri-neft resurslarının təməllərinə əsaslanan resurs bazası genişlənib. Bu iqtisadi islhataların nəticəsində 2025-ci ilin ilk yarısında neft-qaz sektorunda 3,2 faizlik daralmaya baxmayaraq, qeyri-neft sektorunda artım 3,9 faizlik artım iqtisadi potensialın və əlavə dəyərin böyüməsini təmin edib. Hazırda tikinti, nəqliyyat, İKT və pərakəndə ticarət sahələrində fəaliyyətlər, eləcə də kənd təsərrüfatı və turizm sahələrindəki imkanlar xarici və fiskal balansların əhəmiyyətli profisitlərlə saxlanılmasına imkan yaratmaqdadır.

### Ən yaxşı islahatçı ölkələr sırasında

Azərbaycanda aparılan islahatlar Dünya Bankının dərc etdiyi "Doing Business" hesabatlarında da təqdir olunub və respublikamız ən yaxşı islahatçı ölkələr sırasında yer alıb. Ölkəmiz "Biznesə başlama", "Mülkiyyətin qeydiyyatı", "İnvestorların hüquqlarının müdafiəsi", "Vergilərin ödənişi" indeksləri üzrə ən mütərəqqi islahatlar həyata keçirib. "Biznesə başlama" və "Vergilərin ödənişi" indeksləri üzrə Azərbaycan ilk 10 ölkə qrupunda yer alıb. Hesabata əsasən bu reytinq göstəricisi üzrə kommersiya hüquqi şəxslərin qeydiyyatı üçün yerinə yetirilməli olan prosedurların sayı 2, sərf edilən müddət 3 gündür. Burada prosedurlar onlayn qeydiyyat üçün elektron imzanın alınması üzrə 1 gün, onlayn qeydiyyatdan keçmə üzrə isə (VÖEN və ƏDV qeydiyyatı daxil) - 2 günə bərabərdir. Həmçinin, ölkəmiz "Vergilərin ödənilməsi" indeksi üzrə də MDB məkanında ilk yerlərdən birini tutub. Bu metodologiyaya əsasən, orta ölçülü şirkətin il ərzində ödəməli olduğu vergi və ödəmələr, həmçinin onların inzibatçılıq yükü müəyyən edilir. Vergi və ödəmələrə müxtəlif mənbələrdən olan mənfəət və gəlirlərə görə vergilər, o cümlədən əmlak icarəsindən vergilər, dividend və kapital vergiləri, maliyyə köçürmələrindən əldə edilən gəlirdən vergilər, işəgötürənin ödədiyi əmək vergiləri, sosial ayırmalar, əmlak, avtomobil və yol vergiləri və sair aid edilir. Ötən dövr ərzində ölkəmizdə məcburi dövlət sosial sığorta haqlarının ödənişi və hesabat sisteminin avtomatlaşdırılması tam başa çatdırılıb ki, nəticədə həmin hesabatların hazırlanıb ödənilməsinə sərf olunan vaxt 40 saat qiymətləndirilib.

### İnflyasiya Mərkəzi Bankın hədəf diapazonunda qalacaq

Dünya Bankının ekspertlərini icmal sənədində Azərbaycanın gələcək iqtisadi artımı ilə bağlı proqnozları da nikbindir. Qeyd edilir ki, iqtisadi artımın 2025-2027-ci illər arasında orta hesabla 1,7 faiz səviyyəsində qalacağı gözlənilir. Bu, neft qiymətlərinin azalması fonunda fiskal siyasətin sərtləşməsi ilə bağlıdır. İnflyasiya Mərkəzi Bankın hədəf diapazonunda qalacaq. Qısamüddətli risklərə qarşı ehtiyatlar kifayət qədər olsa da, uzunmüddətli dayanıqlılıq iqtisadiyyatın struktur islahatları vasitəsilə şaxələndirilməsi səylərinin uğuru sayəsində təmin olunacaq. Özəl sektorun potensialından faydalanmaq üçün növbəti islahatların vacibliyini dəyərləndirən hökumətin azad bazarın inkişafı üçün bərabər rəqabət mühitini təkmilləşdirməsi, maliyyə resurslarına çıxışı genişləndirməsi və digər addımlar əlavə dəyərin qeyri-dövlət resursları üzərində uzunmüddətli inkişafını daha da böyüdə bilər.

Tədbirdə rəqabət siyasətinin iqtisadi inkişafa töhfəsi, rəqabət mədəniyyətinin formalaşması, rəqabət orqanının müasir çağırışlar fonunda rolu, işğaldan azad edilmiş ərazilərdə rəqabət siyasətinin tətbiqi xüsusiyyətləri, bazar subyektlərinin yeni rəqabət qanunvericiliyin sahibkarlara verdiyi imkanlar, sahibkarların hüquqlarının qorunması istiqamətində atılan addımlar, rəqabət qanunvericiliyinə əməl edilməsinə nəzarət tədbirləri ətrafında fikir mübadiləsi aparılıb.

***E.CƏFƏRLİ***

# PKK Türkiyəni tərk edir - bəs sonra?

Bu günlərdə PKK terror təşkilatı Türkiyədən tamamilə çıxacağını bəyan edib. Bununla bağlı İraqın şimalında Qəndil dağlarında keçirilən mərasim zamanı oxunan bəyanatda bildirilib. PKK rəsmi Ankara ilə razılaşdırılmış silahsızlanma prosesi çərçivəsində bütün yaraqlılarını Türkiyədən çıxarmağa başladığını bəyan edib. Qruplaşma bu qərarın "azad, demokratik və qardaş həyatı"nın əsaslarını qoymaq və Türkiyə ilə silahlı qarşıdurmanı başa çatdırmaq üçün nəzərdə tutulduğuna xidmət etdiyini bildirib. Qardaş ölkənin rəsmi dairələri PKK-nın bəyanatına münasibət bildiriblər. Türkiyə prezidentinin mətbuat katibi Ömər Çelik PKK-nın bu addımını "hökumətin məqsədi olan "Terrorsuz Türkiyə"nin reallaşdırılmasının konkret nəticəsi" adlandırıb və bunun prosesin hüquqi aspektlərinin parlament tərəfindən nəzərdən keçirilməsi üçün "müsbət əsas" yaratdığını qeyd edib.

### Terror təşkilatının birbaşa və dolayı iştirakı ilə yazılan qanlı tarix

Müasir Türkiyə tarixinin bir sıra qanlı səhifələri məhz PKK terror təşkilatının bilavasitə və yaxud dolayı iştirakı ilə yazılıb. Bölücü terror təşkilatı 47 il əvvəl, avqustun 14-də Siğirt və Hakkaridə ilk hücumunu həyata keçirib. Həmin tarixdən etibarən terror təşkilatı ilə mübarizədə qardaş ölkənin 10 minə yaxın təhlükəsizlik xidməti əməkdaşı şəhid olub, 50 minə yaxın insan həyatını itirib. Eyni zamanda, terror təhdidlərinin nəticəsi olaraq ayrı-ayrı bölgələrin çoxlu sayda dinc sakini öz ev-eşiklərini tərk etmək məcburiyyətində qalıb. Türkiyədə terror hücumları nəticəsində qeyri-sabit vəziyyət yaranıb, iqtisadiyyata təxminən 2 trilyon dollar həcmində ziyan dəyib.

Eyni zamanda, qeyd olunmalıdır ki, PKK yalnız Türkiyə daxilində fəaliyyət göstərməyib. Terror təşkilatının qonşu ölkələrdə də qolları yaradılıb. Bu isə qardaş ölkə üçün xarici təhdid anlamında qəbul olunur. Təsadüfi deyildir ki, Türkiyə ötən illər ərzində terrorçulara qarşı mübarizəni iki cəbhədə - həm ölkə daxilində, həm də qonşu dövlətlərin ərazisində aparmaq məcburiyyətində qalıb.

Bütün bunlar böyük itkidir və qardaş ölkə öz tarixində terror səhifəsini birdəfəlik bağlamaq istəyir. Türkiyənin PKK-ya qarşı mübarizəsi beynəlxalq səviyyədə aparılan fəal diplomatiya və sahədə həyata keçirilən əməliyyatlarla tamamlanır. Dövlətin və cəmiyyətin həmrəyliyi şəraitində aparılan qətiyyətli fəaliyyətlər nəticə verir. İndiyədək Türkiyənin PKK-ya qarşı ölkə daxilində və qonşu dövlətlərin ərazisində həyata keçirdiyi silahlı əməliyyatlar ayrı-ayrı qruplaşmaların məhv edilməsi ilə yekunlaşırdı. Bu,əlbəttə ki, xarici güclərin də dəstəyi ilə yaxşı strukturlaşmış terror şəbəkəsinin sonunu gətirə bilməzdi. Dağlarda çətin coğrafi şəraitdə keçirilən əməliyyatlar həm də Türkiyə Silahlı Qüvvələrinin itkiləri hesabına başa gəlirdi. Lakin hər nə qədər çətin olsa da, Türkiyə terrorçulara qarşı mübarizəni səngitmədi, əksinə, getdikcə daha qətiyyətli davranışlar sərgilədi ki, bu da öz bəhrəsini verdi.

Cari ildən etibarən PKK-nın silahsızlaşdırılmasına başlanılması qardaş ölkənin "Terrorsuz Türkiyə" hədəfinin reallaşdırılması yolunda çox mühüm mərhələdir. Prosesə PKK terror təşkilatı tərəfdarlarının cari il iyulun 11-də İraqın şimalında yerləşən Süleymaniyə şəhərində silahların təhvil verilməsi ilə başlanıb. Silahların təhvil verməsi Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının (MHP) sədri Dövlət Baxçalının 2024-cü ilin oktyabrında etdiyi çağırışa və Prezident Rəcəb Tayyib Ərdoğanın "Daxil cəbhəni gücləndirək" mesajı ilə başlayan "Terrorsuz Türkiyə" quruculuğu prosesi çərçivəsində reallaşır. Artıq terrorçular Türkiyə dövlətinin gücünü və qətiyyətini görürlər və müqavimətin əhəmiyyətsiz olduğunu başa düşürlər. Xatırladaq ki, İmralıda ömürlük həbs cəzasına məhkum edilən PKK lideri Abdullah Öcalan 27 fevral 2025-ci il tarixli "Sülh və demokratik cəmiyyət çağırışı"nda rəhbərlik etdiyi təşkilatdan silahların təhvil verilməsini istəyib. O, tərəfdarlarına qurultay keçirərək dövlət və qanunla cəmiyyətlə inteqrasiya haqqında qərar qəbul etmək lazım olduğunu vurğulamışdı. Bundan sonra Türkiyə antiterror əməliyyatlarını dayandırmışdı. Sonradan Öcalan bu xüsusda videomüraciət ünvanlayıb. "Prosesin ümumi mənzərəsi çərçivəsində silahların könüllü şəkildə buraxılması və Türkiyə Böyük Millət Məclisində səlahiyyətli və qanunla yaradılması planlaşdırılan əhatəli bir komissiyanın fəaliyyəti mühüm əhəmiyyət daşıyır", - deyə PKK lideri müraciətində vurğulayıb.

### Türkiyənin böyük uğuru - PKK-nın silahsızlaşdırılması

Silahların ilk təhvil verilməsi mərasimi təhlükəsizlik məqsədi ilə media üçün qapalı, ayrıca bir məkanda həyata keçirilib. Lakin bu, heç də məlumatların mediadan gizlədilməsi anlamına gəlmir. Görüntülər media nümayəndələri ilə ekran vasitəsilə paylaşılıb. Bütövlükdə media üçün bütün imkanlar təmin edilib. Silahların ilk təhvil verilməsi mərasimində terror qruplaşmasının sıravi üzvləri ilə yanaşı, PKK-nın rəhbərliyindəki şəxslər də iştirak ediblər. Alınan silahlar xüsusi ayrılmış yerlərdə zərərsizləşdirilib. Proses Milli Kəşfiyyat Təşkilatının (MİT) və Türkiyə Silahlı Qüvvələrinin nəzarəti altında reallaşıb. Silahların təhvil verilməsini həmçinin Şimali İraqın regional rəhbərliyi və Bağdadın mərkəzi hökumətinin rəsmiləri də izləyiblər.

Türkiyə PKK-nın silahsızlaşdırılmasını fasiləsiz şəkildə həyata keçirilməsində israrlıdır. Silahı yerə qoyan PKK üzvlərinin İraqda qalmaları razılaşdırılıb, lakin onların təşkilati fəaliyyətlə məşğul olmaları qadağan edilib. Onlar habelə təşkilatın adından açıqlama verə bilməzlər. Türkiyədə heç bir cinayət törətməyən və İraqın şimalındakı terror aktlarında iştirak etmədiyi təsbit olunan PKK üzvləri Türkiyəyə qayıda biləcəklər. Bunu istəyən təşkilat üzvləri İraqda da qala və ya Suriyaya keçə bilərlər. Murat Karayılan, Cəmil Bayık və Mustafa Karasu kimi sayı 30-40 nəfər olan PKK/KCK yüksək rütbəli rəhbərliyinin Türkiyəyə qayıtmasına icazə verilməyib.

Diqqətçəkən mühüm məqamlardan biri də ondan ibarətdir ki, terrorçuların silahsızlaşdırılması üçün konkret vaxt çərçivəsi müəyyənləşdirilib. Belə ki, təxminən 2 min nəfər terrorçu üçün proqnozlaşdırılan müddət 2 - 5 ay arasındadır. Vaxtın uzadılması yeni risklərə və təhlükələrə yol aça bilər. Buna görə də qardaş ölkə əvvəlki oxşar proseslərdən fərqli olaraq bu dəfə silahların təhvil alınmasını konkret zaman çərçivəsində sonuclamaq niyyətindədir. Proses çərçivəsində həmçinin kənd yerlərindəki böyük silah anbarları da təslim ediləcək. Tərk-silahın Ankara, Ərbil və Bağdadda yaradılan mərkəzlərin koordinasiyası ilə reallaşması nəzərdə tutulur.

Bu proses zamanı həbsxanada olan 5 minə yaxın PKK-çının vəziyyəti, cinayətləri, cəzalarının çəkilməmiş hissələri, yaşları və sağlamlıqları nəzərə alınmaqla yenidən qiymətləndiriləcək. Təşkilatın üzvlüyünə cəlb etdiyi və ya qaçırıldığı zaman uşaq olan bir çox gənc üçün reabilitasiya və inteqrasiya proqramları həyata keçiriləcək.

Türkiyənin budəfəki həmləsi həmçinin daha geniş coğrafiyanın əhatə olunması ilə fərqlənir. "Terrorsuz Türkiyə" prosesi İraqda uğurla həyata keçirildikdən və konkret nəticələr verdikdən sonra regional dinamika əsas götürülməklə PKK-nın Suriyada da tərkisilah edilməsi nəzərdə tutulur.



### PKK regional təhdid olaraq qalacaq

Öcalanın çağırışı ilə PKK üzvlərinin cari ilin iyul ayından etibarən silahsızlaşdırılması prosesinə start veriləndə onların Türkiyə cəmiyyətinə inteqrasiya olunacaqları güman edilirdi. Yəni təşkilat üzvləri də Türkiyə cəmiyyətinin bir hissəsinə çevriləcəkdilər. Lakin başlanmış proses yekunlaşmadan PKK üzvlərinin Türkiyədən çıxması gündəmə gəlib. Bu, yeni bir prosesdir. PKK Türkiyədən çıxır. İlk baxışda qardaş ölkənin onilliklər ərzində arzuladığı bir hadisə izlənəcək, Türkiyə PKK-çılardan xilas olacaq. Lakin terror təşkilatının üzvlərinin Türkiyəni tərk etmələrinin xoş niyyətlə həyata keçirildiyini söyləmək hələ tezdir. Müəmmalı məqamlar çoxdur. Narahatlıq yaradan ən mühüm məqam silahların gələcək taleyi ilə bağlıdır. PKK üzvləri ölkədən silahlarını təhvil vermədən çıxmaq niyyətindədirlər. Beləliklə, terrorçuların Türkiyədən çıxmaları daxili risk amilini sıfırlasa da, gələcəkdə xarici təhdid ehtimallarını gücləndirir. Sanki bir silahlı qruplaşma yerdəyişmə edir ki, bu da PKK üzvlərinin Türkiyə daxilində fəaliyyətlərindən heç də az təhlükəli deyil. Nəzərə almaq lazımdır ki, PKK-nın İraq, Suriya və digər ölkələrdə qolları var. Türkiyədən çıxan silahlıların yeni ünvanlarda və yeni düşərgələrdə məskunlaşmaları tam realdır.

Vurğulamaq yerinə düşər ki, silahlı PKK Türkiyə kimi, digər ölkələr üçün də potensial təhlükə həsab edilir. İraqın şimalında Regional Administrasiya ilə PKK arasında zaman-zaman toqquşmalar yaşanır. Administrasiya bu silahlıları ərazilərini işğal edən bir qruplaşma olaraq görür. Bu səbəbdən də PKK üzvlərinə qarşı mübarizə aparırlar. Şimaldakı yerli idarəetmə orqanı da PKK-nın kürd etnik qrupun adından fəaliyyət göstərməsinə qarşı çıxış edir.

İraqın mərkəzi hökuməti də bu qruplaşmanı qanunsuz sayır. Hətta onunla bağlı təbliğat aparılmasına qadağa qoyulub. Beləliklə, görünən odur ki, Türkiyədən çıxan PKK üzvlərini İraqda da arzuedilən qonaq qismində gözləmirlər.

Suriya ilə də bağlı oxşar fikirləri bölüşmək mümkündür. PKK-nın Suriyadakı YPG/PYD qollarının yaratdıqları "Suriya Demokratik Gücləri" ("SDG") adlı silahlı qruplaşma bu ölkədə məlum hakimiyyət əvəzlənməsindən sonra da pozuculuq əməllərini davam etdirir. Son aylar "SDG" qüvvələri və Suriya ordusu arasında tez-tez silahlı toqquşmalar baş verir. Cari ilin mart ayında Suriya lideri Əhməd əş-Şaraa ilə "SDG" başçısı Məzlum Abdi arasında razılaşma imzalanmışdı. Onda "SDG" ölkənin yeni idarəetməsinin qurumlarına inteqrasiya olmağı qəbul etmişdi. Səkkiz maddəlik razılaşmaya əsasən, "kürd icması, Suriya dövlətinin ayrılmaz bir parçası" olaraq tanınır və "vətəndaş olma hüquqları daxil, bütün konstitusion hüquqlar" zəmanət altına alınır. Lakin sonradan PKK razılaşmanı pozaraq Suriyanın şimalında İraqdakı kimi özünüidarəetmə administrasiyasının yaranması istəyini gündəmə gətirdi.

İzlənilən proseslər onu deməyə əsas verir ki, PKK-nın Türkiyədən çıxmasını terror təşkilatının tam zərərsiz bir quruma çevriləcəyi anlamında qəbul etmək mümkün deyil. Nə qədər ki, silah PKK-çıların əlində olacaq, onlar Türkiyə və digər region dövlətləri üçün potensial təhlükə olaraq qalacaqlar. Buna görə də PKK-ya qarşı mübarizə regional platforma çərçivəsində daha qətiyyətli şəkildə davam etdirilməlidir.

***Mübariz FEYİZLİ***

# Rekord qeydə alına bilər - şatdaunun 30-cu günündə...

## Prosesin noyabrın 27-nə qədər uzanacağı gözlənilir

### Konqres 13-cü dəfə "yox" dedi

ABŞ tarixində ən uzunmüddətli hökumət bağlanması kimi yadda qalacaq proses hələ də davam etməkdədir. Xatırladaq ki, bağlanma artıq 30-cu gününə qədəm qoyur - ABŞ-da şatdaun 1 oktyabr gecə yarısı (Bakı vaxtı ilə səhər saat 8:00) maliyyə çatışmazlığı səbəbindən başlayıb. Bu, Konqresdəki hakim Respublikaçılar və müxalif Demokratlar partiyalarının nümayəndələrinin səhiyyə də daxil olmaqla bir sıra xərc maddələri üzrə razılığa gələ bilməməsi səbəbindən baş verib.

Müddətin bu qədər uzanması isə birmənalı qarşılanmır. Bağlanmanın ilk günlərində bəzi siyasətçilər bunu adi hal kimi qəbul edirdilər - bildirilirdi ki, yeni maliyyə ili başlamazdan əvvəl Respublikaçılar və Demokratlar arasında çətin büdcə danışıqlarının uğursuzluğu səbəbindən hökumət bağlanmaları ABŞ-da adi haldır. Hətta amerikalılar belə bu cür vəziyyətləri həddindən artıq dramatikləşdirməməyə meyllidirlər - amma indi vəziyyət fərqli görünür. Qeyd edək ki, ABŞ Senatının Konqresi son bir neçə həftə ərzində 13-cü dəfə Respublikaçılar Partiyasının təklif etdiyi federal hökumətin maliyyələşdirilməsi haqda qanun layihəsini rədd edib. Prosedur səsverməsi zamanı Nümayəndələr Palatası tərəfindən əvvəllər təsdiq edilmiş qanun layihəsi 54 üzv tərəfindən dəstəklənib, 45 senator isə əleyhinə səs verib. Qanun layihəsinin təsdiqlənməsi üçün 60 səs tələb olunur.

### Demokratlar geri çəkilmir...

ABŞ KİV-lərinin məlumatına görə, prosesin bu qədər uzanmasında qarşılıqlı ittihamlar irəli sürülür. Belə ki, Respublikaçılar Demokratları bağlanmada əsas günahkar kimi görürlər - demokratları maksimalist adlandırırlar. Səbəb isə demokratların nəyin bahasına olursa olsun, Obamacare və Medicaid proqramları çərçivəsində səhiyyə xərclərinə əlavə 1,5 trilyon dollar əlavə etmək istəyidir. Demokratlar əlavə pulun inflyasiya səbəbindən artan sığorta haqları səbəbindən səhiyyə xidmətindən məhrum qala biləcək aşağı gəlirli amerikalılara subsidiya verək üçün lazım olduğunu qeyd edirlər. Barak Obama dövründə qəbul edilən hər iki proqramı səmərəsiz hesab edən respublikaçılar isə bu addımı dövlət xərclərinin həddindən artıq şişirdilməsi sayırlar. Demokratlar da büdcə qəbul edilənə qədər dövlət qurumlarını müvəqqəti olaraq maliyyələşdirmək üçün qanunvericiliyi dəfələrlə bloklayaraq, geri çəkilmək istəmirlər.

Amma vəziyyət get-gedə ciddi hal almağa başlayır. Proses irəlilədikcə demokratların daxilində parçalanma baş verir. Partiyanı dəstəkləyən federal işçilər həmkarlar ittifaqı oktyabrın 27-də partiyanı Respublikaçılar tərəfindən təklif edilən müvəqqəti maliyyələşdirmə qanun layihəsini qəbul etməyə çağırıb. Demokratlar hələ də tərəddüd edirlər. Quinnipiac Universitetinin son sorğusuna görə, respondentlərin 45 faizi bağlanmada respublikaçıları, 39 faizi isə demokratları günahlandırır. Müstəqil seçicilər arasında (hər iki partiyanı dəstəkləməyənlər) fərq daha da böyükdür: 48 faiz respublikaçıları, 32 faiz isə demokratları bağlanmanın səbəbkarı kimi önə sürür. Bu isə hakim partiya üçün ciddi siqnaldır.

### Hava limanlarında gecikmələr ola bilər...

Qeyd edək ki, noyabrın 1-dən ABŞ hökumətinin bağlanması davam etdiyi üçün Əlavə Qidalanma Yardımı Proqramı çərçivəsində ərzaq talonları da artıq amerikalılara verilməyəcək. ABŞ-ın Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, buna Senatın demokratlar qrupu səs verib. Bu isə bağlanma riskinin hətta gələn ayın axırına kimi davam edəcəyini deməyə əsas verir. ABŞ Nümayəndələr Palatasının üzvü Anna Paulina Luna deyib ki, ABŞ-da federal hökumətin qismən bağlanması Şükran gününə (27 Noyabr) və ya daha çox davam edə bilər. Ağ Ev isə hesab edir ki, şatdaun davam etsə, tətil günləri də daxil olmaqla aviareyslərin kütləvi yubanmları və ləğvi gözlənilir. Ağ Evin sözçüsü Kerolayn Livitt bildirib ki. "Demokratlar şatdaunu uzatsalar, bizi ölkənin əsas hava limanlarında əhəmiyyətli uçuş gecikmələri və ləğvləri gözləyir". Onun sözlərinə görə, narahatlıqlar xüsusilə ABŞ-da noyabrın sonunda qeyd olunan Şükranlıq gününün yaxınlaşması ilə əlaqədardır - bu zaman hava limanları xüsusən yüklənir. Ağ Ev hesab edir ki, hökumətin işini dayandırması ABŞ-ın hava təhlükəsizliyini təhlükə altına qoyur.




### Bəzi hərbi qulluqçuların maaşı ödənəcək...

Görünən budur ki, məsələ yalnız əməkhaqqları və ya bağlanmalar, eləcə də infrastrukturun "süstülüyü" ilə yekunlaşmır - məsələ daha ciddi hal alır. ABŞ federal hökumətinin fəaliyyətinin dayandırılması (şatdaun) nəticəsində Energetika Nazirliyi Milli Nüvə Təhlükəsizliyi İdarəsinin 1400 əməkdaşını ödənişsiz məzuniyyətə göndərməyə məcbur qalıb. Bu hal ABŞ-ın nüvə silahı istehsalı ilə bağlı hədəflərinə çatmasına mane ola bilər. CNN-in məlumatına görə, qalan işçilər fəaliyyətlərini davam etdirirlər, halbuki ABŞ Prezidenti Donald Trampın administrasiyası idarədən modernləşdirilmiş silahların Pentaqona daha qısa müddətdə çatdırılmasını tələb edir. Mənbələrin bildirdiyinə görə, istehsalın qısamüddətli dayandırılması belə silahların hazırlanma müddətini aylarla, hətta illərlə gecikdirə bilər. Çünki nüvə materialları ilə işin təhlükəsiz şəkildə dayandırılması olduqca mürəkkəb prosesdir. Qeyd edilir ki, administrasiyanın bu addımları onun milli təhlükəsizlik sahəsində irəli sürdüyü iddialı hədəflərlə ziddiyyət təşkil edir.

ABŞ-ın Prezident administrasiyası isə Federal hökumətin maliyyələşdirilməsinin dayanmasına baxmayaraq, oktyabrın 31-də bəzi hərbi qulluqçulara maaş ödəyə biləcək. ABŞ-ın vitse-prezidenti J.D.Vens bu açıqlamanı verib. "Hesab edirik ki, cümə günü hərbi qulluqçulara maaş ödəməyə davam edə biləcəyik. Təəssüf ki, demokratlar bizi çox çətin vəziyyətə saldıqları üçün hamıya maaş verə bilməyəcəyik", - o qeyd edib.

"Politico" yazır ki, Pentaqon oktyabrın əvvəlində tədqiqat və inkişaf üçün ayrılmış vəsaitlərdən istifadə edərək xidmətdə olan hərbi qulluqçulara maaş ödəyib. Vens bu dəfə ödənişlər üçün planlaşdırılan maliyyələşdirmə mənbələrini açıqlamayıb.

### Vəziyyət uzanarsa...

Xatırladaq ki, bağlanma zamanı bəzi dövlət işçilərinə məcburi ödənişsiz məzuniyyət verilir. Onlara işə gəlmək, xidməti avadanlıqdan istifadə etmək, öz vəzifələrini yerinə yetirmək qadağan olunur. Milli parklar və muzeylər bağlanır, elmi tədqiqatlar dayandırılır, IRS auditləri dayandırır və Kiçik Biznes İdarəsi yeni şirkətlərə kreditlərin verilməsini bloklayır. Yeni pasportlar və vizalar işlənmir. Podratçılar - mühafizəçilər, təmizləyicilər və başqaları da ödənişsiz qalırlar.

İnsanların və əmlakın təhlükəsizliyini təmin edən xidmətlər, eləcə də işi Konstitusiyada təsbit olunmuş vəzifəli şəxslər - prezident, Konqres üzvləri, hakimlər, hərbi qulluqçular, federal hüquq-mühafizə orqanlarının əməkdaşları, dövlət xəstəxanalarının həkimləri, aviadispetçerlər, qida təhlükəsizliyi müfəttişləri öz işlərini davam etdirirlər. Hər bir qurum maaş almadan işləməli olan işçilərin siyahısını tərtib edir. Sosial təminat proqramları (Medicare, Medicaid, əlillik ödənişləri) və ABŞ Poçt Xidməti fəaliyyətini davam etdirir - onlar ayrıca maliyyələşdirilir. Klinikalar və veteranların sağlamlıq xidmətləri də fəaliyyətini davam etdirir- baxmayaraq ki, bəzi xidmətlər, məsələn, milli qəbiristanlıqların saxlanması müvəqqəti olaraq dayandırıla bilər.

Qeyd edək ki, hazırkı vəziyyət ABŞ-da müasir büdcə qaydalarının qəbul edildiyi 1976-cı ildən bəri maliyyələşmədə 21-ci analoji gecikmədir. 1980-ci ilə qədər belə fasilələr hökumətin fəaliyyətinə mane olmurdu. Baş prokuror Benjamin Sivilettinin (1980-1981) prosesi tənzimləyən qərarlarından sonra vəziyyət dəyişdi - o, federal qurumların təsdiq edilmiş büdcə olmadan fəaliyyət göstərmək hüququnun olmadığını təsdiqlədi. 1990-cı ildən bu yana hətta bir neçə saatdan çox davam edən hər hansı maliyyə gecikməsi rəsmi olaraq bağlanma hesab olunur. Ən uzun bağlanma isə Donald Trampın birinci prezidentliyi dövründə baş verib: 34 gün (22 dekabr 2018-ci il - 25 yanvar 2019-cu il).

***P.İsmayılov***

# Barını çürüdən ağac

## Onore de Balzakın "Yevgeniya Qrande" romanı haqqında

**əvvəli ötən saylarımızda**

Yevgeniya isə atasının indiyəcən bağışladığı, təxminən altı min frank dəyəri olan sikkələri Şarla peşkəş eləyir. Şarl bunca bahalı hədiyyəni götürmək istəməyəndə qız onun qarşısında diz çökür. Əvəzində oğlan da ata-anasının portretləriylə bəzənmiş üstü qızıl-brilyant işləməli qiymətli qutunu ona verir, belə şərtləşirlər ki, Şarl nə vaxt borcunu qaytarsa, amanətını da geri alacaq. Bundan sonra qızla oğlan arasındakı sevgi, şəfqət qığılcımları alova çevrilir, onlar məzara qədər bir-birinə sadiq qalacaqlarına and içib əhd bağlayırlar, öz müqavilələrini bakirə öpüşlə möhürləyirlər. İyirmi üç yaşlı Yevgeniyanın qəlbində ilk dəfə qadınlıq duyğuları tərpənişir, hərçənd qız özünü parisli əmoğlusuna qətiyyən layiq bilmir.

Tezliklə Şarl həyatı sıfırdan başlayıb var-dövlət qazanmaq üçün Şərqi Hindistana yollanır. Yevgeniya ilə anası da həyəcan dolu bir intizarla yeni il bayramını gözləyirlər, çünki hər ilin ilk günündə Qrande ata qızına bağışladığı sikkələri ortalığa töküb qızıllarin parıltısını gözünə təpməkdən xüsusi zövq alır. Vaxt tamama yetəndə qızılların aqibətindən xəbər tutan qoca xəsis havalanmaq həddinə çatıb qızını lənətləyir, ona yalnız yavan çörək, soyuq su verilməsi şərtiylə Yevgeniyanı ev həbsinə məhkum eləyir. Madam Qrande hökmün icrasına mane olmağa çalışsa da, əlindən bir şey gəlmir, onda qadın bunu özünə dərd eləyib yatağa düşür. Yevgeniya cəzasını ləyaqətlə çəkir, sevgisinə, əhdinə sədaqəti ondan ötrü ən böyük təsəlli, dirilik qaynağı, nəfəslik olur.

Həftələr, aylar keçir, artıq evin xanımının sağalmasına zərrə ümid qalmayanda notarius Krüşonun məsləhətiylə Qrande ata qızını dustaqlıqdan azad eləyir, çünki Yevgeniya anasının ölümündən sonra qanunla vərəsəliyə iddia irəli sürə bilər, odur ki, indidən onun könlünü almaq lazımdır. Qızının əfv olunması ananı çox sevindirir. Xəstənin yatağı başında birdən Qrandenin atanın gözünə Şarlın yadigarı dəyir, qoca tamahkar qutunu qızının əlindən alıb üstündəki qiymətli cəvahiratı qoparmağa çalışır. Yalnız Yevgeniyanın bıçaq götürüb özünü öldürəcəyinə and içməsi gözü dönmüş qocanın əl-qolunu soyudur, onu yırtıcı əməlindən daşındırır.

Bu gərginliyə dözməyən xəstə 1822-ci ilin həmin payız günündə canını tapşırır. Anasının ölümündən sonra atası Yevgeniyanı dilə tutub, ona vərəsəlikdən imtina haqqında sənədə qol çəkdirir. Beləliklə, qız atasından - qoca despotun olmayan mərhəmətindən tam asılı qalır.

***

Bu minvalla daha beş il ötüb keçir. Qrandenin işiylə bağlı Parisə getmiş bankir de Qrassen paytaxt gözəllərinə ilişib geri qayıtmır (Qrande buna sevinir, çünki onun hesabına cənnətə düşmüş bankirə bu hesabla borclu qalmır, yəni məlum olur ki, bankir paytaxta onun işindən ötrü yox, Paris xanımlarının eşqinə dartınırmış), onun arvadı isə Yevgeniyanı oğluna almaq planından əl çəkməyə məcbur qalır. Qrande ata əmisi oğlunun veksellərıylə apardığı maxinasiya əməliyyatları sayəsində mərhumun borcunu dörd milyondan bir milyon iki yüz minə endirə bilir. Sonra qoca xəstələnib yatağa düşür, Yevgeniya gecə-gündüz onun qulluğunda durur. Arabir atası qızıllarını gözlərinin qarşısına sərdirir, quruyub sozalmış canını sarı iblisin parıltısına qızdırır. Ölümünün yaxınlaşdığını duyan qoca yavaş-yavaş kommersiya sirlərini qızına açıb söyləyir, onu özünün xislətinə yoluxdurur.

Qrande ata 1827-ci ildə, səksən iki yaşında ömrünü övladına tapşırıb dünyasını dəyişir, ancaq bu dünyayla yenə haqq-hesabını üzmür, yer üzündə bir cüt göz, bir cüt əl qoyub gedir. Bu zaman artıq Şarl Qrande Hindistanda işini başa vurub vətənə qayıtmış olur. Daha saf, duyğulu Şarldan əsər-əlamət qalmayıb, onun Qrande yoxsunlu qəlbi çoxdan daşa-qayaya dönüb. Şarl özüylə gətirdiyi kapitalı Şərqi Hindistanda kölə alverindən, insanları mal kimi alıb-satmaqdan qazanıb. Əhd-peyman bağladığı əmisi qızını, demək olar, xatırlamır.

Atasının ölümündən bir il sonra Yevgeniya Şarldan məktub alır. Şarl borcunu qaytarmaqla yanaşı, əmisi qızına bildirir ki, həm yaşı, həm də cəmiyyətdəki mövqeyi baxımından istəklərinə tam uyğun bir mademuazellə evlənməyə hazırlaşır - bununla da bir yandan onu gözləyə-gözləyə qarımış Yevgeniyanın ötmüş yaşına, o biri yandan da əmisi qızının kübar paytaxt cəmiyyətinin standartlarına cavab vermədiyinə işarə vurur.

***

Bu məktub neçə illik intizarı bitirməyə yetərdi, ancaq Yevgeniya daha artığını öyrənir: madam Qrassenin deməsinə görə, əmoğlu Parisə məktub yazıldığından xeyli əvvəl qayıdıbmış, ancaq evlənmə məsələsi ciddi şübhə altındadır, çünki gəlinliyə namizədin atası borc içində üzən birinə dünya dağıla qız verməz, üstəlik, Şarl artıq paytaxtda fırıldaqçı kimi tanınmağa başlayıb, atasının borclarını qaytarmaqdan yayınmaq üçün kübar cəmiyyət üzvünə yaraşmayan hərəkətlərə yol verir. Yevgeniya hər bir şeydən üz döndərib monastıra çəkilmək istəsə də, keşiş onu fikrindən daşındırır, çünki o, böyük bir sərvətin yiyəsi kimi həyatın ortasında durmalı, cəmiyyətin içində qalmalı, ehtiyacı olanlara əl tutmaqla Allaha xidmət göstərməlidir. Başqa sözlə, passiv ibadət üsuluyla yox, aktiv ibadət yoluyla Tanrıya tapınmalıdır.

Elə həmin günün axşamı Yevgeniya məhkəmə sədri Krüşonu çağırdıb ona ərə getməyə razı olduğunu bildirir, bir şərtlə ki, bu evlilik rəmzi mahiyyət daşıyacaq, onların imzalayacağı nikah müqaviləsi evlilikdən çox ticari iş birliyi qurmaq üçün kommersiya sazişi xarakterli bir sənəd olacaq. Krüşo böyük bir təsərrüfatın idarə olunmasında təcrübəsiz Yevgeniyaya arxa-dayaq duracaq.

Razılaşmadan sonra Yevgeniya mərhum əmisinin bütün borclarını faizləri qarışıq üzmək üçün öz sərvətindən iki milyon frank ayırıb Krüşonu bu haqq-hesabı çürütmək tapşırığıyla Parisə göndərir. Bütün maliyyə iddialarının ödənməsiylə bağlı aktı Şarla təqdim eləyəndə məhkəmə sədri on yeddi milyon franklıq cehizi olan mademuazel Qrande ilə evləndiyini onun nəzərinə çatdırmağı da unutmur. Tamahının neştərini artıq çoxdan itiləmiş Şarl Qrandenin bu fantastik məbləği eşidəndə hansı hala düşdüyünü təsəvvürə gətirmək o qədər də çətin deyil.

Nikah müqaviləsinin şərtlərinə həmişə sayğı göstərən, arvadına ehtiramla yanaşan Krüşo ürəyinin dərinliyində Yevgeniyanın ölümünü çılğıncasına arzulayır. Qədərqismət belə fərman verir ki, o dünyaya birinci Krüşonun özü gedəsi olur, Yevgeniya otuz altı yaşında dul qalır. Külli sərvət yiyəsi olsa da, o, atasının qoyub getdiyi evdə atasının qoyduğu qaydalarla yaşayır, təbiətən simic olmadığına baxmayaraq buxarını Qrande atanın dediyi vaxtdan tez yandırmağa icazə vermir. Hərçənd atasından fərqli olaraq xeyriyyə işlərinə də pul ayırır...

**davamı növbəti sayımızda**



***F.Uğurlu***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Uzun illərin həsrəti...

## “Böyük Qayıdış”ın daha iki ünvanı!




İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad edilən ərazilərimizin bərpası və inkişafı üçün genişmiqyaslı işlər davam etdirilir. Görülən bütün işlər Azərbaycanın gücünü, strateji baxışını və idarəetmə qabiliyyətini nümayiş etdirir. Hazırda regionda genişmiqyaslı infrastruktur layihələri icra olunur. Yeni avtomobil və dəmir yolları, hava limanları, elektrik və su təchizatı sistemləri yaradılır, iqtisadiyyat, təhsil, səhiyyə, ictimai xidmətlər, mədəni irsin bərpası və digər istiqamətlərdə mühüm layihələr həyata keçirilir.

Bu gün Ağdamın Xıdırlı və Ağdərə rayonunun Həsənriz kəndi dirçəlişin və yenidənqurmanın simvoluna çevrilən ünvanlardan biridir. Uzun illər işğalın acısını yaşayan bu kəndlər indi tamamilə yenidən qurulur. Beləliklə, Xıdırlıda və Həsənrizdə təkcə evlər yox, bir ümid, bir həyat, bir gələcək inşa edilir...



### Ağdərənin azad olunması

Azərbaycan Ordusunun şanlı qələbələrindən olan 2016-cı ilin Aprel döyüşləri nəticəsində Füzuli və Cəbrayıl rayonları ilə yanaşı, Ağdərə rayonunun da ərazisinin bir hissəsi işğaldan azad edilmişdi. Rəşadətli Ordumuzun sarsıdıcı zərbəsi ilə Ağdərə rayonunun Talış və Seysulan kəndləri düşməndən təmizləndi. Bu şanlı qələbə bütün qaçqın və məcburi köçkünlərimiz kimi, ağdərəlilərdə də doğma yurdlarına qayıdacaqları günün uzaqda olmadığına qəti inam yaratmışdı.

Nəhayət, 2023-cü il sentyabrın 20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində Ağdərə şəhəri separatçılardan təmizləndi. Prezident İlham Əliyev oktyabrın 15-də Ağdərə şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı.

### 108 ailənin sevinci

Dünən Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə “Böyük Qayıdışa dair I Dövlət Proqramı”na əsasən Həsənriz və Xıdırlı kəndlərinə növbəti köç karvanı yola salınıb. Bu mərhələdə Xıdırlı kəndinə 91 ailə - 366 nəfər, Həsənriz kəndinə isə 17 ailə - 83 nəfər köçürülüb.

Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda həyatlarını qurban vermiş şəhidlərimizə rəhmət diləyiblər.

Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda oraya köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən ümumilikdə 50 mindən çox insan yaşayır

### Xıdırlıda layihələr həyata keçirilir

Qeyd etdiyimiz kimi, azad edilmiş bölgələrin bərpası üçün çoxsaylı infrastruktur layihələri həyata keçirilir. Lakin Ağdamın Xıdırlı kəndində həyata keçirilən quruculuq işləri təkcə fərdi evlərlə məhdudlaşmır. Belə ki, Xıdırlı müasir kənd modeli kimi qurulur. Burada çoxfunksiyalı inzibati bina, klub-icma mərkəzi, tibb məntəqəsi, təcili tibbi yardım bölməsi, həmçinin təhsil və səhiyyə işçiləri üçün müvəqqəti qonaq evi, məişət xidməti obyekti, emalatxana, tam orta məktəb və körpələr evi-uşaq bağçası da tikilib.

Bu infrastruktur yeni sakinlərin gündəlik həyatını rahat və təhlükəsiz şəkildə davam etdirməsi üçün hər cür şərait yaradır. Xidmət sektoru, təhsil və səhiyyə sahələri, ictimai məkanların hamısı yenidən dizayn olunub və müasir standartlara uyğunlaşdırılıb.

Həmçinin Xıdırlı kəndinin layihəsində ekoloji tarazlığa da xüsusi diqqət yetirilib. Kəndin ərazisinin təxminən 20 faizi yaşıllıqlardan ibarətdir. Bu yaşıl zonalar təkcə kəndin gözəlliyinə xidmət etmir, eyni zamanda sakinlər üçün istirahət məkanları və ekoloji sağlam mühit formalaşdırır. Geniş bulvarlar, ağaclar və bəzək kolları ilə bəzədilmiş park sahələri kəndin gələcəyini daha da ümidverici edir.

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış” ” istiqaməti üzrə hazırlanmışdır**

### 5093 nəfərin məskunlaşdırılması planlaşdırılıb

Xatırladaq ki, Xıdırlı kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdu. İkinci Qarabağ müharibəsində ordumuzun qələbəsindən sonra Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli bəyanata əsasən Ağdam rayonu Azərbaycana təhvil verilib.

2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Ağdamda səfərdə olarkən bir sıra məntəqələrin təməli qoyulmuşdu. Ağdam rayonunun yeni təməli qoyulan 3 kəndindən biri isə Xıdırlı idi. Kənddə 5093 nəfərin məskunlaşdırılması planlaşdırılıb. Layihələndirilən ərazi 418 hektardır.

Xıdırlı Qarabağın dirçəliş strategiyasının canlı nümunəsidir. Tikilən evlər, çəkilən yollar, əkilən ağaclar bu torpaqlarda yenidən həyatın başladığını, Azərbaycanın doğma torpaqlarından əl çəkmədiyini və çəkməyəcəyini göstərir...

Bu gün doğma torpaqlarına geri dönən hər bir keçmiş məcburi köçkün sevinc içindədir. Zamanında düşdükləri məcburi köçkünlük vəziyyəti onların həyatlarını bir çox cəhətdən dəyişsə də, heç vaxt torpaqlarına olan bağlılıqlarını zəiflədə bilmədi. İndi hər bir addımda o torpağın nə qədər qiymətli olduğunu daha yaxşı dərk edirlər.

### “61 yaşımda geri dönürəm”

Ağdamın Xıdırlı kəndindən köçən keçmiş məcburi köçkün İdris İbadov bildirib ki, otuz ildən sonra doğma yurduna geri dönür: “Bu günü görmək, bu həyəcanı yaşamaq bizim üçün böyük xoşbəxtlikdir. Bu, elə bir sevincdir ki, Allah bütün qaçqın və köçkünlərimizə bu hissi yaşamağı nəsib etsin. Kəndimizdən çox faciəli şəkildə çıxmışdıq - o vaxt mühasirələrdən ayaqyalın, başıaçıq qaçaraq canımızı qurtarmışdıq. Bu gün isə tam fərqli mənzərədir: dövlətimiz bizə hər cür şərait yaradıb, yük maşınları ilə, rahat nəqliyyat vasitələri ilə bizi doğma yurdumuza yola saldılar. Bu diqqət və qayğıya görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya dərin minnətdarlığımı bildirirəm”.

İ. İbadov əlavə edib ki, oradan çıxanda 29 yaşı var idi, bu gün isə 61 yaşında geri qayıdır: “Həyat yoldaşım və uşaqlarım ilə birlikdə doğma kəndimizə qayıdıram”.

### Həsənrizə qayıtmaq böyük sevinc və xoşbəxtlikdir

Ağdərənin Həsənriz kəndinə köçən keçmiş məcburi köçkün Habil Əvəzov bildirib ki, Həsənrizə qayıtmaq böyük sevinc və xoşbəxtlikdir: “Otuz iki ildir ki, bu günü gözləyirdik. Torpaqlarımızın azadlığı uğrunda əziyyəti olanlara təşəkkür edirəm, şəhidlərimizə rəhmət, qazilərimizə uzun ömür və sağlamlıq diləyirəm”.

O, bildirib ki, 7 yaşında Həsənrizdən çıxmalı olublar: “O günlər hələ də xatirimdə duman kimi qalır. Təhlükələrlə üz-üzə qalaraq evimizdən ayrılmaq məcburiyyətində qalmışdıq. Lakin bu gün dövlətimizin dəstəyi ilə, rahat nəqliyyat vasitələri ilə doğma yurdumuza qayıtmaq imkanımız var və bu, bizim üçün böyük xoşbəxtlikdir”.

H. Əvəzov bütün köçkünlərə belə bir günün nəsib olmasını arzulayaraq, dövlət başçısına və Azərbaycan xalqına dərin minnətdarlığını bildirib.

Göründüyü kimi, azad olunmuş torpaqlarımıza Böyük Qayıdış bir başlanğıcdır. Bu qayıdış, yalnız tarixin köhnə səhifələrinin bir araya gətirilməsi deyil, həm də yeni bir səhifənin açılmasıdır. Bu səhifə sadəcə Qarabağda yaşayan insanlar üçün deyil, bütün Azərbaycan xalqı üçün yeni üfüqlər açacaq...

*Yeganə*

# Sürücü diqqətsizliyi, piyada məsuliyyətsizliyi...

## Çıxış yolu nədir?

Statistikaya görə, hər il dünyada orta hesabla 1,3 milyon insan yol qəzaları nəticəsində dünyasını dəyişir. Yol-nəqliyyat hadisələrinin artmasının başlıca səbəbi və günahkarı yol hərəkəti iştirakçılarıdır. Təcrübəsiz şəxsin sükan arxasına keçməsi, yol və hava şəraitinə uyğun tədbir görülməməsi, ehtiyatsızlıq, avtomobili sərxoş vəziyyətdə idarə etmək, hərəkət zamanı sürət həddini aşmaq, yol-hərəkəti qaydalarına əməl etməmək və s. qəzaların əsas səbəbləridir.

Etiraf edək ki, qəzalar zamanı piyadaların da günahı az olmur. Yol hərəkəti qaydalarına əməl etməmək, piyadalar üçün nəzərdə tutulmuş zolaqlı yolu qırmızı işığda keçmək, nəqliyyat vasitəsinin qəfildən qarşısına və ya arxasından çıxmaq, piyada keçidlərinə etinasızlıq kimi hallar da qəza ilə nəticələnir.

Ciddi problemlərə yol açan bu kimi halların qarşısını almaq üçün daha hansı tədbirlər görülməli, nələr edilməlidir?

### Qəzaların əksəriyyəti bu yerlərdə baş verir

Sualımızı cavablandıran nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərov “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, ölkəmizdə baş verən nəqliyyat qəzalarının gün keçdikcə artmasının bir neçə səbəbi var. Bunlardan ən əsası yol hərəkəti iştirakçılarının məsuliyyətsizliyidir: “İlk növbədə, sürücü və ya piyadalar yol-hərəkəti qaydalarını pozduqları üçün bu qəzalar baş verir. Bəzən yollarda yaranmış çuxurlar, yolların normal işıqlandırılmaması da qəzalara gətirib çıxarır. Avtomobillərin qarşı zolağa çıxması, ötmə qaydalarının pozulması, sürət həddinin keçilməsi, diqqətsizlik - bunların hamısı ümumilikdə yol qəzalarının baş verməsinə səbəb olur. Eyni zamanda onu da qeyd etmək lazımdır ki, bu qəzaların əksəriyyəti şəhərdaxili və ya məntəqədaxili ərazilərdə, yüksək sürətə icazə verilməyən yerlərdə baş verir. Bu da qeyd etdiyimiz həmin o səbəblərin doğru olduğunu sübut edir”.



### Sürücü nə qədər peşəkar olsa...

E.Cəfərov qeyd edib ki, yol-nəqliyyat hadisələrinin baş verməsinin əsas səbəblərindən biri sürücülərin peşəkarlıq və səriştə səviyyəsinin aşağı olmasıdır: “Sürücü nə qədər peşəkar və hazırlıqlı olsa, yol qəzalarının da baş vermə ehtimalı bir o qədər az olar. Sürücülük işi ölkədə daha ciddi şəkildə təkmilləşdirilməlidir. Təəssüf ki, hazırda yollarda səriştəsiz sürücülərin sayı kifayət qədər çoxdur.

Yalnız sürücülər deyil, digər yol hərəkəti iştirakçılarının - piyadaların və velosipedçilərin də davranışlarında ciddi nöqsanlar müşahidə olunur: “Piyadalar və velosiped sürənlər də “Yol hərəkəti haqqında” qanuna əməl etməli, yollarda təhlükəsiz davranış mədəniyyətinə sahib olmalıdırlar. Bu istiqamətdə maarifləndirmə işləri gücləndirilməlidir”.

### “Yollar yenilənir, amma qəzalar azalmır ki, azalmır”

E.Cəfərovun sözlərinə görə, ötən illə müqayisədə bu il yol qəzalarının sayı artıb: “Halbuki biz ilbəil ölkəmizdə yol qəzalarının sayının azaldılmasına nail olmalıyıq. Qəzalar zamanı ölüm halları və xəsarətlərin sayının azalması istiqamətində müəyyən proqramlar qəbul etmişik. Amma təəssüf ki, qəzaların sayı azalmır. Yol qəzaları həm maddi, həm də mənəvi itkidir. Neçə-neçə insanın, ailənin bədbəxtliyinə səbəb olan, neçəsini şikəst, əlil edən yol qəzaları digər tərəfdən də iqtisadiyyata küllü miqdarda ziyan vurur. Qəribə bir məntiqi nəticə meydana çıxır. Xərclənən vəsait artır, yol infrastrukturu günbəgün inkişaf edir, yollar yenilənir, daha rahat və daha da çox olur, qəzalar isə azalmır ki, azalmır”.

### Xarici ölkələrin təcrübəsi...

Ekspert vurğulayıb ki, yol-nəqliyyat hadisələrinin artmasının digər əsas səbəbi isə yol hərəkəti təhlükəsizliyinin zəif təmin olunmasıdır: “Bu istiqamətdə də ardıcıl və sistemli tədbirlərin görülməsi vacibdir. Qəzaların qarşısını almaq üçün həm nəqliyyat vasitələri, həm də yol infrastrukturu mütəmadi olaraq yenilənməli, yolların vəziyyətinə və hərəkət şəraitinə davamlı nəzarət təmin olunmalıdır. Yol varsa, hərəkət də var - istər nəqliyyat vasitəsi, istərsə də piyada səhv edə bilər. Amma yol infrastrukturu səhvlərin ağır nəticələrə gətirib çıxarmasının qarşısını almalıdır. Bu sahədə nümunə götürülə biləcək ölkələr var. Bu gün Almaniya, Niderland, Böyük Britaniya və İspaniya kimi ölkələr yol hərəkəti təhlükəsizliyi sahəsində ön sıradadır. Halbuki bu ölkələr dünyada ən çox avtomobil olan, əhalisi sıx və yol şəbəkəsi geniş ölkələrdir. 1970-ci illərdə bu ölkələrdə də vəziyyət kifayət qədər acınacaqlı idi - qəzalar çox olurdu, ölüm halları yüksək idi. Amma zamanla həmin ölkələrdə genişmiqyaslı dövlət proqramları qəbul olundu və nəticədə həm qəza sayı, həm də qəzalar zamanı ölüm halları kəskin şəkildə azaldı”.

*Yeganə BAYRAMOVA*

## Elan

Bakı şəhəri, Məhəmməd Hadi küçəsi 81 nömrəli binada yerləşən Məhəmməd Hadi adına Xeyriyyə Təşkilatının diarəvi möhürü tapıldığı üçün etibarlı sayılır.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4994**
**Sifariş: 2218**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova